Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

18-20 MAY 2019-cu il

№ 89 (3987)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN RUSİYANIN TƏHLÜKƏSİZLİK ÇƏTİRİNİ ABŞ-a DƏYİŞİR - MTŞ KATİBİNİN ABŞ-da MƏXFİ GÖRÜŞLƏRİNİN PƏRDƏARXASI...

■ səh. 5 ■

Ermənistanın tarixi müttəfiqi sayılan Fransa da Azərbaycanın ən güclü hərbi təchizatçılarından birinə çevrilir

■ səh. 9 ■

Neft bazarı tarixində ilk dəfə qiymətlər 200 dollarlıq həddə çatacaq

■ səh. 11 ■

Avroliqanın futbol finalına görə Azərbaycanın gömrük, vergi və viza qanunvericiliyində dəyişikliklər - nə əldə edəcəyik...

■ səh. 13 ■

Eldar Əzizov Prezidentin tapşırığı ilə qanunsuz tikililərlə bağlı əsaslı prosesə start verib

■ səh. 13 ■

Yunus Oğuzla Elçin Hüseynbəyli Bakının 46 və 283 saylı məktəblərini "bir ocaq başına" yığdı - Azərbaycançılıq...

■ səh. 12 ■

Bankların kompensasiya ödənişində "şapka" deyilən rüşvətalma söhbətləri də çıxır...

■ səh. 14 ■

"MilliÖn" aparatları "Bakı Kart" üçün ödənişlərində vətəndaşlara fırıldaq gəlir

■ səh. 14 ■

Bakıda 1 milyon sahibsiz it?

■ səh. 15 ■



■ səh. 8 ■

## Tramp Türkiyə ilə əlaqələrin bərpa oluna biləcəyinə son ümidləri də qırdı - Türkiyə statusdan məhrum edildi...



Avropa Birliyi Azərbaycan demokratiyasında tük axtarır, Fransadakı qanlı olayları görmədi - bir hesabatın çoxüzlü standartları...

■ səh. 3 ■

Köçəryan partiya qurur və ömürlük həbsə gedir - «Qarabağ klanı» baş naziri devirmək üçün hərəkətə keçdi

■ səh. 7 ■




«Arsenal» futbol klubunun rəhbərliyi ən sonda «erməni oyunu»na uydu - 40 oyunda cəmi 8 qol vurmuş qeyri-məhsuldar futbolçuya görə...

■ səh. 10 ■

■ səh. 4 ■

Belçikanın küçələrində Orduxanın nə jurnalistə, nə də normal etirazçıya yaraşmayan qəribə davranışları - Orduxan polisə yalandan "mən kino çəkirəm" dedi...



■ səh. 6 ■

Rusiya Ermənistanı "faşizmin qəhrəmanlaşdırılması" cinayətində rəsmən ittiham etdi



■ səh. 5 ■

Sabiq prezident Xatəminin İranı federallaşdırmaq bəyanatı şok effekti kimi dəyərləndirilir



■ səh. 7 ■

Ermənistan cəmiyyətində mənəvi aşınmanın son həddi - pedofiliya sürətlə yayılır...



■ səh. 15 ■

Bakının ortasındakı məşhur "Şanxay"ın söküntü yerləri qorxulu antisanitariya mənbəyinə çevrilib...



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti ilə görüşüblər

**Mayın 17-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin Sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Dövlət başçısı ordeni İrina Viner-Usmanovaya təqdim edib.

Qonağı Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik edən Prezident İlham Əliyev ona Azərbaycanda gimnastika məktəbinin yaradılması işinə verdiyi böyük töhfəyə görə də minnətdarlığını bildirib. İrina Viner-Usmanovanın təkcə Azərbaycanda deyil, dünya idman ailəsində böyük nüfuza malik olduğunu qeyd edən dövlət başçısı məhz onun səyləri nəticəsində Rusiya gimnastlarının da uzun illərdir yüksək nəticələr göstərdiyini vurğulayıb və ona gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

İrina Viner-Usmanova Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya göstərdikləri diqqətə görə təşəkkür edib.

## Prezident Saatlı və Sabirabad rayonlarının icra başçılarını dəyişdi

**Prezident İlham Əliyev Siraqəddin Cabbarovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Dövlət başçısı eyni zamanda Siraqəddin Nəcəf oğlu Cabbarovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi ilə bağlı sərəncam imzalayıb.

Digər sərəncamlarla Nazim Mehdi oğlu İsmayılov Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilərək, Saatlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

## ABŞ şirkətləri Azərbaycanda keçirilən islahatları yüksək qiymətləndirir

**ABŞ bütün istiqamətlərdə Azərbaycanı dəstəkləyir. "Trend"in məlumatına görə, bunu ABŞ-ın Azərbaycandakı səfiri Erl Litsenberger Bakıda Azərbaycanla ABŞ arasında iqtisadi əməkdaşlıq komissiyasının iclasında deyib.**



Səfir qeyd edib ki, iki ölkə arasında münasibətləri yeni səviyyəyə çıxartmaq olar. Cənub Qaz Dəhlizinin vacibliyini vurğulayan E.Litsenberger deyib ki, bu layihə təkcə Azərbaycan üçün yox, həm də Avropa üçün çox vacibdir. Səfir əlavə edib ki, ABŞ şirkətləri Azərbaycanda həyata keçirilən vergi və gömrük islahatlarını yüksək qiymətləndirir.

# Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib

**Mayın 17-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.**



Dövlət başçısı görüşdə çıxış edərək deyib ki, Müqəddəs Ramazan ayında bu görüşlər ənənəvi xarakter daşıyır:"İlk növbədə, xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Bildiyiniz kimi, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız var. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsinlər". Son vaxtlar Azərbaycanda turizmin inkişafının sürətlə getməsindən danışan dövlət başçısı deyib ki, müsəlman ölkələrindən olan turistlərin Azərbaycana gəlməsi sevindiricidir:"Onların sayı ildən-ilə artır. Bir sözlə, ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bu əlaqələrin gələcək inkişafı üçün çox yaxşı şərait və imkanlar var".

Ölkəmizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığına toxunan Prezident deyib ki, bu əməkdaşlıq BMT-də, İslam Əməkdaşlıq Təşkilatında qarşılıqlı dəstək formasında özünü göstərir:"Bu qarşılıqlı dəstək bizim əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu uzun illərdir işğal altında saxlayır. Bu münaqişə və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu, beynəlxalq hüququn pozulmasıdır. Baxmayaraq, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etmişlər, əfsuslar olsun ki, işğalçı dövlətə lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası - dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ancaq bu qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və Azərbaycanın ərazi bütövlüyü tam beynəlxalq dəstək alıbdır. Ancaq işğalçıya kifayət qədər təzyiq göstərilmir. Münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm.

Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Bildiyiniz kimi, biz İslam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atırıq. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər İslam həmrəyliyinin möhkəmlənməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, İslam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır".

Prezident xatırladıb ki, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir:"Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir. Onu da bildirməliyəm ki, Azərbaycan İslam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, təqdimatlar keçirilir və beləliklə, biz İslamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik.

Keçən il Naxçıvan - bizim qədim şəhərimiz İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu qərara görə biz bütün müsəlman ölkələrinə minnətdarıq. Onu da qeyd etməliyəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsində oynadığı rolu çox yüksək qiymətləndirir".

Fələstin Dövlətinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim bu müqəddəs ayda görüş üçün vaxt ayırdığına görə Azərbaycanın dövlət başçısına təşəkkür edib.

***Baki-xeber.com***

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirildi

**Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.**

Komissiya ilk olaraq Bakı şəhər sakini, kiçik sahibkar Nurtəkin Məmmədovanın "Baku.WS" Xəbər Portalına qarşı şikayətini araşdırıb. Şikayətçinin sayt barədə iradları və bu iradların qarşılığı olaraq irəli sürdüyü tələblər uyğunsuz sayılıb. Məsələ baxılmamış saxlanıb. İclasda Bakı şəhər sakini Cavanşir Rüstəmovun "Milletinsesi.info", "Teref.az" və "Teref.info" saytlarına qarşı şikayəti də araşdırılıb. Tərəflər şikayət doğuran məqamların aradan qaldırılması üçün razılığa gəlib.




Müzakirə edilən növbəti məsələ Bakı Şəhər İcra Hakimiyyəti Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Ramiz Quliyevin "Milliyol.az" və "Bizimxeber.az" saytlarına qarşı şikayəti olub. Şikayət doğuran məqamların aradan qaldırılması üçün razılığa gəlinib.

Ağdaş rayon sakini, fərdi sahibkar Məhəmməd Əliyevin "Media-Press.org" saytı barədə şikayətində ciddi ittihamlar yer aldığından və sayt təmsilçisi hərəkətləri barədə arqumentlər təqdim etmədiyindən, məsələ geniş araşdırılmaq üçün MŞ-nin "Reket jurnaistika"ya qarşı mübarizə Komissiyasına yönləndirilib.

# Avropa Birliyi Azərbaycan demokratiyasında tük axtarır, Fransadakı qanlı olayları görmədi - bir hesabatın çoxüzlü standartları...

**Məlum olduğu kimi, Avropa İttifaqı "Dünayada insan hüquqları və demokratiya ilə bağlı vəziyyətə dair" illik hesabat yayıb. Hesabatda Azərbaycanda da insan hüquqları və demokratiya ilə bağlı vəziyyətə dair məqamlar öz əksini tapıb.**

*"Ölkə polisinin nümayişçilərə qarşı bütün sərt davranışları hesabatda öz əksini tapmayıb"*

***Əvəz Həsənov:** "Hesabatda Fransada insan hüquqları ilə bağlı vəziyyətə çox səthi formada toxunulub"*

Qurumun rəsmi saytında dərc edilən hesabatda bildirilir ki, guya Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyət hələ də narahatlıq doğurur. Avropa Birliyi ölkəmizdə guya insan haqları ilə bağlı vəziyyətin qənaətbəxş olmadığını bir sıra amillərlə izah etməyə çalışır. Qərəzli olaraq bildirirlər ki, sərbəst toplaşmaq, söz və birləşmək azadlığı məhdudlaşdırılır və s.

Maraq doğuran məqamlardan biri də demokratiyadan danışan Avropa Birliyi qurumun aparıcı üzvlərindən olan Fransada yaşananlara həmin hesabatda nə dərəcədə yer verməsidir. Məlumdur ki, Fransada baş verən nümayişlər bu ölkənin müvafiq qurumları tərəfindən sərt şəkildə yatırıldı.

**Çoxsaylı nümayişçi ağır şəkildə xəsarət aldı. Bu zaman həm də ölənlər oldu. Aksiya iştirakçılarına polis tərəfindən tətbiq olunan gücü bütün dünya izlədi və eyni zamanda, ictimaiyyət bunu qınadı. Bütün dünya gördü ki, Fransa dinc aksiya iştirakçılarına qarşı necə sərt davranır.**

Maraqlıdır, hesabatda bütün bunlara toxunulubmu? Hüquqi baxımdan buna münasibət bildirilibmi?

**Sözügedən məsələyə aydınlıq gətirən Humanitar Tədqiqatlar İctimai Birliyinin rəhbəri Əvəz Həsənovun sözlərinə görə, Aİ-nin hesabatında Fransada baş verənlərə çox səthi toxunulub:** "Hesabatda Fransada insan hüquqları ilə bağlı vəziyyətə toxunulub və bununla bağlı müəyyən mesajlar var, amma çox səthi formada. Məsələ ondadır ki, Fransada polislərin özbaşınalığına və nümayişçiləri qəddarcasına döyməsinə yer verilməyib.

\Bütün bunları görməzdən gələrək, faktiki olaraq, təsvir etməyiblər. Avropa İttifaqı obyektiv olsaydı, o zaman hazırlanan hesabatda Fransada yaşananlara ədalətli qiymət verərdi. Reallıq ondan ibarətdir ki, Fransada 3 aydan çoxdur mitinqlər davam edir. Birinci qarşıdurmada 180 nəfərdən çox zərərçəkən var idi. Çoxsaylı insan polis müqaviməti ilə üzləşib və onların əmlakına zərər dəyib. Həmçinin, çoxsaylı insan xəsarət alıb.





**Nümayişlərlə əlaqədar Fransa hökuməti vətəndaşlara qarşı məhdudiyyətlər tətbiq edib. Ancaq Fransa polisinin nümayişçilərə qarşı bütün bu sərt davranışları hesabatda öz əksini tapmayıb. Necə deyərlər, bütün bunlar nümayişkəranə şəkildə hesabata daxil edilməyib. Hansı ki, obyektiv olsaydılar, Fransada bütün bu baş verənlər hesabatda öz əksini tapardı. Ancaq, göründüyü kimi, bu belə olmayıb. Bu da, təbii ki, doğru deyil".**

***Vidadi ORDAHALLI***

# Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi Ermənistanın işğalçılıq siyasəti ilə bağlı forumlara hazırlaşır




**Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi (BMAM) Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə yeni layihə həyata keçirir.**

Ermənistanın regional təhdidi mövzusunda keçiriləcək müzakirələrin əsas məqsədi Ermənistanın Azərbaycan topraqlarını işğal etməsi nəticəsində regionda ölkələrarası münasibətlərin inkişafına, qarşılıqlı əlaqələrə təsir etməsi, humanitar əlaqələrin qurulmasına mane olmasının beynəlxalq ictimaiyyətə çatdırılmasıdır.

"Ermənistanın regional təhdidi mövzusunda beynəlxalq tədbirlərin təşkili" layihəsi çərçivəsində Bakı və Gəncə şəhərində iki mühüm beynəlxalq Forum keçiriləcək. Bakı şəhərində baş tutacaq tədbir mayın 30-da, Gəncə şəhərində isə iyunun 12-də keçiriləcək.

Forumlarda, yerli ekspertlərlə yanaşı, Azərbaycanda akkreditasiya olunan beynəlxalq təşkilatların, səfirliklərin təmsilçiləri, yerli və o cümlədən xarici media nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Layihənin həyata keçirildiyi müddətdə "Facebook" sosial şəbəkəsində təşkilatın qrup və səhifələrində online formada İctimai Forumlar təşkil olunacaq. Bu Forumlara isə, yerli iştirakçılarla bərabər, əcnəbi sosial şəbəkə istifadəçiləri də cəlb olunacaq. Virtual Forumların keçirilməsində əsas məqsəd müxtəlif xarici ölkələrdən olan sosial şəbəkə istifadəçilərinin bu müzakirələrdə iştirakı və onların Ermənistanın işğalçılıq siyasəti haqqında həm məlumatlandırılması, həm də geniş təbliğat mexanizminin qurulmasıdır.

Bu Forumlar vasitəsilə Ermənistanın işğalçılıq siyasəti və bu təcavüzün regionda müxtəlif problemlər yaratması dünya ictimaiyyətinə və mediasına, vətəndaş cəmiyyətinə çatdırılacaq.

Bununla bağlı Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov bildirib ki, Ermənistanın işğalçılıq siyasəti uzun illərdir davam edir: "Bu müddət ərzində Ermənistanda 5-ci hakimiyyət dəyişikliyi olub. Lakin heç bir halda işğalçılıq siyasətindən imtina edilməyib. Təəssüf ki, indiyə qədər dünya dövlətləri, beynəlxaql təşkilatlar təcavüzkar Ermənistana işğalçılıq siyasətindən əl çəkməsi üçün açıq çağırış etməyib, Azərbaycan torpaqlarını işğaldan azad etməzsə, ona qarşı sanksiyalar tətbiq ediləcəyini bəyan etməyib".

Rufiz Qonaqov layihənin məqsədləri haqqında danışarkən əsas məqsədin region dövlətlərinin Azərbaycana dəstəyinin ifadə olunması və torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağ münaqişəsinin həllində ölkəmizə dəstək verilməsinin təmin edilməsi olduğunu bildirib: "Regionda qarşılıqlı etimad, humanitar əlaqələrin güclənməsi və gələcəkdə bu təhlükənin region üçün ciddi problemlər yaradacağına dünya ölkələrinin, beynəlxalq təşkilatların daha çox diqqətini cəlb etmək məqsədlərimizdəndir".

# Belçikanın küçələrində Orduxanın nə jurnalistə, nə də normal etirazçıya yaraşmayan qəribə davranışları - Orduxan polisə yalandan "mən kino çəkirəm" dedi...



***Bəhruz Quliyev:*** *"Onun istəyi odur ki, təki Azərbaycan dövlətinin, xalqının imici korlansın"*

***Niyaməddin Orduxanlı:*** *"O bununla Azərbaycan xalqının və dövlətinin mənfi imicini yaratmağa nail olmaq istədi, lakin buna nail ola bilmədi"*



**Dünyanın hansı yerində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının üzərinə düşən əsas vəzifə Azərbaycanın dövlət maraqlarını müdafiə etmək, xalqımızın və dövlətimizin müsbət imicini formalaşdırmaqdır. Ancaq təəssüf ki, xaricdə yaşayan bəzi "azərbaycanlıyam" deyənlərin davranışlarında bunun əksini görürük. Onlar öz fəaliyyətləri, davranışları ilə Azərbaycan dövlətinin və xalqının imicinə zərbə vururlar.**

Belə əxlaqsız davranışları biz Orduxan Temirxanın simasında da görürük. Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə rəsmi səfərdə olarkən orada Orduxanın etdiyi tərbiyəsiz hərəkətlər həqiqətən də narazılıqlar doğurur. Orduxan Brüsseldə olduqca tərbiyəsiz hərəkətlər edib. Onun bu hərəkətinə ad qoymaq, əlbəttə, çox çətindir. Bu adamın sərgilədiyi hərəkətlər, işlətdiyi söyüşlər, Azərbaycan dövlətinə qarşı səsləndirdiyi təxribatçı fikirlər onun əxlaqının hansı səviyyədə olduğunu açıq şəkildə göstərdi. O burada özünü nə bir reportaj hazırlayan jurnalist kimi, nə də normal etiraz aksiyası keçirən birisi kimi təqdim edə bildi. Onun azərbaycanlıya yaraşmayan hərəkətləri, ən nalayiq formada işlətdiyi ifadələr hadisə yerinin yaxınlığında olan Brüssel sakinlərinə də qəribə təsir bağışladı ki, bu adam niyə tərbiyəsizcəsinə qışqırır? Orduxanın söyüş videosunda diqqətçəkən məqamlardan biri odur ki, onun qışqırığına gələn Brüssel polisinə o yalan satır. Orduxan söyüş söyərkən polis ona yaxınlaşdıqda o, Azərbaycan Prezidentinin kortecində olan adamları göstərərək ingilis dilində "mən burada kino çəkirəm, bunlar mənə mane olur" deməsi onun öz tərbiyəsizliyini həyata keçirmək üçün hər cür varianta əl atdığının əyani sübutudur.

Orduxanın Brüssel küçəsində söyüş söyməsi, qışqırması, hər cür əxlaqsız sözlər danışmasının Azərbaycan dövləti və xalqı haqqında yanlış təsəvvür yaratmağa xidmət etdiyini deyən ekspertlər hesab edirlər ki, o, xarici ağalarından aldığı pulları tam mənimsəmək üçün Azərbaycan dövlətinin, xalqının "qara obrazı"nın yaradılması üçün əlindən gələni edir. **Onun bu addımının birbaşa missionerlik fəaliyyəti ilə bağlı olduğunu deyən "Səs" qəzetinin və eyni adlı informasiya agentliyinin rəhbəri, siyasi icmalçı Bəhruz Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Orduxan və onun kimi insanların nə vətəndaşlıq mövqeyi var, nə də milli təəssübkeşlik hissi.** "Bilirsiniz, məni həmişə bir maraqlı sual düşündürür: insan öz vətənini sevməlidirmi? Bu suala hamı birmənalı şəkildə "bəli, sevməlidir" cavabını verir. Hər bir vətəndaş öz dövlətinin və xalqının qarşısında cavabdehlik daşıyır. Kimliyindən asılı olmayaraq, hər bir insan dərk etməlidir ki, hansı dövlətin vətəndaşıdır, hansı xalqın nümayəndəsidir. Heç olmasa insanda bir vətənpərvərlik hissi, vətəndaşlıq mövqeyi olmalıdır. Sən nə qədər aşağılıq biri olasan ki, öz dövlətinin atributları, dövlətin, dövlətçiliyin, xalqın haqqında kənar bir ölkədə olmazın hərəkətlər edəsən, ağıla sığmayan söyüşlər işlədəsən, heç kimin qəbul edə bilmədiyi davranışlar sərgiləyəsən.

Orduxanın bu tərbiyəsiz davranışı adamda iki sual yaradır: birincisi, ya bu adamın içində Azərbaycan xalqına və Azərbaycan dövlətinə qarşı iyrənc hisslər, antipatiya var və bu iyrəncliyi çıxarmaq üçün belə söyüşlərdən, əxlaqsız davranışlardan istifadə edir, ikincisi isə o adamın kənardan idarə olunması məsələsidir. Yəni o, müxtəlif qrupların maraqlarına xidmət etmək məqsədilə bu addımı atıb. O, müəyyən qüvvələrin onun üzərinə qoyduğu iyrənc missiyanı yerinə yetirir. Bu adam Azərbaycan dövlətinə, xalqına qarşı belə ehtiras-la antipatiya nümayiş etdirir. Bu da onunla bağlıdır ki, o, kiminsə, hansısa qüvvələrinsə sifarişini yerinə yetirir, ona verilən maliyyəni silmək üçün bu addımı atır. Normal təfəkkürlü, davranışlı vətəndaş, azərbaycanlı öz dövlətinə, dövlət atributlarına, xalqına qarşı bu addımları atmaz, əxlaqsız davranışlar sərgiləməz. Ola bilsin ki, kimsə müxalif fikirlidir, amma bu ona əsas vermir ki, o, kənar bir ölkədə durub dövləti söysün, ittiham etsin, dövlət atributlarını təhqir etsin. Orduxan və Orduxan kimi bir neçə ünsür var ki, onlarda heç bir məhdudiyyət yoxdur. Yəni Orduxan kimilərinin daxilində nə vicdan, nə milli təəssübkeşlik, nə də vətənpərvərlik hissləri var. Yəni onlar o qədər iyrənc bir yol gedirlər ki, şeytanla da əməkdaşlıq etməyə hazırdırlar. Onun istəyi odur ki, təki Azərbaycan dövlətinin, xalqının imici korlansın, onlar haqqında yanlış təsəvvürlər formalaşdırılsın, bu iyrənc missiyanı da Orduxan kimiləri yerinə yetirsin".

**BAXCP-nin sədr müavini Niyaməddin Orduxanlı da hesab edir ki, Orduxanın Brüsseldə sərgilədiyi hərəkətlər birbaşa Azərbaycan xalqının və dövlətinin xarici ölkələrdə "qara obrazı"nın cızılmasına xidmət edir.** "Əslində, Orduxan Azərbaycan əleyhinə fəaliyyət göstərən bir sıra qrupların, güc mərkəzlərinin casus şəbəkəsinin üzvüdür. Yəni o qruplar məqsədli şəkildə hər zaman Azərbaycan dövlətinin nüfuzunun korlanmasında, mühüm beynəlxalq tədbirlərin keçirildiyi binaların qarşısında, Azərbaycan rəsmilərinin iştirak etdiyi tədbirlərdə bu tip adamlardan ölkəmizin əleyhinə istifadə edirlər. Bilirsiniz ki, Orduxan özü Hollandiyada yaşadığını və bu ölkənin vətəndaşı olduğunu bildirir. Amma Brüsseldə Azərbaycanın Avropa İttifaqı ilə Assosiativ saziş imzalaması ərəfəsində Orduxanın orada peyda olması, Azərbaycan dövlətinin əleyhinə bu cür mədəniyyətsiz, əxlaqdan kənar hərəkət etməsi nifrətlə qarşılanır. O burada bir küçə uşağı kimi hərəkət etdi. Orduxanın apardığı bu kampaniya tərbiyəsi olmayan Orduxana yaraşan hərəkətdir. Çünki Orduxanın tərbiyəsi buna imkan vermir ki, o özünü sivil qaydada aparsın. Məqsəd tamamilə başqa müstəvidədir. Məqsəd Orduxanın timsalında bir sıra dövlətlərin rəhbərlərinin tədbirdə iştirak etdiyi bir məqamda "azərbaycanlı" adı Azərbaycan dövlətinin və xalqının əleyhinə istifadə olunan adamların görüntüsünü yaratmaqdır. Bu da Orduxan tipində öz təsdiqini tapdı".

N.Orduxanlı qeyd etdi ki, xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə olduğu zaman bir dəfə də olsun ermənilərin Ermənistan dövlətinin maraqları əleyhinə çıxışının şahidi olmayıb. "Siz görün ki, Orduxan nə qədər satılmış bir ünsürdür ki, yüzlərlə ölkənin başçısının təmsil olunduğu bir tədbirdə öz xalqının, dövlətinin, dövlət atributlarının əleyhinə danışır, onları təhqir edir. O, Azərbaycanın təəssübünü çəkən olsaydı, orada Paşinyandan uzun illərdir işğal altında saxladıqları torpaqlarımızın geri qaytarılmasını tələb etməliydi, amma erməni dəyirmanına su tökərək öz dövlətimizi hədəfə götürdü.

Bu da təsadüfi deyil. O, aldığı təlimatlara əsasən, bu cür əxlaqdan kənar hərəkətlərə yol verdi. Orduxan erməni lobbisinin və Azərbaycanı istəməyən digər qüvvələrin tapşırığı və maliyyəsi hesabına ölkəmizə, xalqımıza qarşı belə nalayiq hərəkətlər etdi. O bununla Azərbaycan xalqının və dövlətinin mənfi imicini yaratmağa nail olmaq istədi, lakin buna nail ola bilmədi. Çünki onun bu hərəkətlərinin mahiyyətinin nə olduğunu hər kəs bilir və hamı da ona nifrət edir" - deyə N.Orduxanlı vurğuladı.

***İradə SARIYEVA***

# Ermənistan Rusiyanın təhlükəsizlik çətirini ABŞ-a dəyişir - MTŞ katibinin ABŞ-da məxfi görüşlərinin pərdəarxası...

**Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ-a səfər edib. Onun Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın xüsusi işlər üzrə köməkçisi, Milli Təhlükəsizlik Şurasının baş direktoru, Rusiya məsələləri və Avrasiya Şurasının milli təhlükəsizlik üzrə direktoru ilə görüşdüyü bildirilir.**



*"Hələlik ciddi bir qırılma nöqtəsi olmasa da, gələcək üçün belə niyyətin olduğu özünü göstərir"*

***Hatəm Cabbarlı:** "Paşinyan bu yeniliyi Rusiya ilə münasibətlərə kölgə salmamaq şərtinə uyğun olaraq, ehtiyatla həyata keçirir"*

Məlumatı Ermənistanın Təhlükəsizlik Şurası yayıb. Bildirilir ki, Vaşinqtonda keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi müzakirə olunub. Tərəflər münaqişənin dinc yolla həllinin vacibliyini vurğulayıblar. Görüşdə ABŞ-ın Ermənistana sərmayə və maliyyə dəstəyi göstərməsi məsələsi də müzakirə edilib.

Qeyd edək ki, ABŞ-ın İrəvandakı səfiri Linn Treysi Ermənistanın Baş naziri Nikol Paşinyanın anti-Amerika bəyanatlarından narazı qaldığını bildirmişdi. L.Treysi ABŞ-ın son 28 ildə Ermənistana 2 milyard dollara yaxın sərmayə qoyduğunu qeyd etmişdi. Bu mənada son aylar Rusiyaya yaxınlaşmaq yönündə böyük məsafə qət eləmiş Paşinyanın Rusiya əleyhdarı kimi tanınan Qriqoryanı Amerikaya səfərə göndərməsi və ona xüsusilə vacib məsələlər ətrafında müzakirələr aparmağa mandat verməsi maraqlı görünür. Sanki belə qənaət hasil olur ki, artıq Paşinyan KTMT çərçivəsində ona verilən təhlükəsizlik təminatından razı deyil. Bu səbəbdən də Rusiyanın təhlükəsizlik çətirini ABŞ-a dəyişmək istiqamətində səylərə başlayıb. Bununla Paşinyan, eyni zamanda, ABŞ-a müstəqil olduğunu, Rusiya ilə hesablaşmadığını da nümayiş etdirmək istəyir. Ermənistan rəhbərliyinin dünyanın iki əsas gücü arasındakı bu reveransını necə dəyərləndirmək olar?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyan hakimiyyətə gələndən sonra Ermənistanın xarici və daxili siyasətində müəyyən dəyişikliklərin baş verdiyini müşahidə etmək mümkündür:** "Xüsusilə də Ermənistanın Avropa Birliyi ilə münasibətlərini inkişaf etdirməyə cəhdlər etdiyini görürük. Ancaq bunu da qəbul etməliyik ki, müstəqilliyini elan edəndən sonra Rusiya həmin ölkənin təhlükəsizliyinin təminatında əvəzedilməz rol oynayır. Nikol Paşinyan nə qədər də özünü qərbpərəst kimi göstərməyə çalışsa da, ölkənin son 30 il ərzində qəlibləşmiş xarici siyasətini və təhlükəsizlik anlayışını dəyişməyə gücü yetmir. Paşinyan gözəl bilir ki, proses olduqca çətindir. Hətta bu istiqamətdə edilə biləcək ciddi manevr onun hakimiyyətdən getməsi ilə nəticələnə bilər. Ona görə də Paşinyan bu yeniliyi Rusiya ilə münasibətlərə kölgə salmamaq şərtinə uyğun olaraq, ehtiyatla həyata keçirir. Bu xüsusda Ermənistanın təhlükəsizliyinə cavabdeh olan məmurun ABŞ-a səfərini, orada uyğun sahənin adamları ilə keçirdiyi görüşləri xüsusi qeyd edə bilərik. Bir neçə gün əvvəl ABŞ-ın Ermənistandakı səfiri maraqlı açıqlama verdi. O qeyd etdi ki, Ermənistan tarixi olaraq Rusiya ilə bağlı olsa da, gələcəyi Qərb və ABŞ-la əlaqəlidir".

Siyasi şərhçinin sözlərinə görə, səfirin bu bəyanatını iki aspektdən dəyərləndirmək olar: "Belə çıxır ki, ABŞ Ermənistanın Rusiyaya daha çox bağlı olduğunu etiraf edir, amma bir sıra aspektlərdə, xüsusilə də təhlükəsizlik məsələlərində ABŞ-ın maraqları ilə üst-üstə düşən siyasət həyata keçirə biləcəyinin vacibliyinə işarə edir. Mənə elə gəlir ki, Ermənistanın uyğun sahəsi ilə bağlı məmurun ABŞ-a səfəri heç də Rusiya ilə münasibətlərə kökündən balta vurulacağı anlamına gəlmir. Amma meyllənmə işartıları özünü göstərir. Ermənistan hazırda Rusiyadan çox asılı olduğu üçün, prosesi yavaş-yavaş aparmağa çalışır. Çünki Rusiyanın bölgədəki mövcudluğu Ermənistanda özünü daha ciddi büruzə verir. Həmin ölkədə Rusiyanın hərbi bazaları mövcuddur. Bundan başqa, Ermənistan KTMT-nin üzvüdür. Düzdür, həmin qurumla aralarında ciddi problemlər olsa da, İrəvan yaxın illərdə həmin qurumu tərk etməyi planlamır. Bu baxımdan da Ermənistan Rusiyaya bağlı və ondan asılı olmasına rəğmən, Qərb dünyası və ABŞ-la təmaslarını davam etdirməyə çox maraqlıdır. Hələlik ciddi bir qırılma nöqtəsi olmasa da, gələcək üçün belə niyyətin olduğu özünü göstərir".

***Məhəmmədəli QƏRİBLİ***

# Şabiq prezident Xatəminin İranı federallaşdırmaq bəyanatı şok effekti kimi dəyərləndirilir

**Məlum olduğu kimi, bu günlərdə İranın sabiq prezidenti Məhəmməd Xatəmi Tehran şəhərinin İslami Şura üzvləri ilə görüşündə İran üçün "federal idarəetmə modelinin ən əlverişli hökumət sistemi" olduğunu bildirib. "Hazırkı durumda uyğun olmaya bilər, amma demokratik hökumətin ən əlverişli modeli federal idarəetmə sistemidir.**



*"İranın mövcud konstitusiyasına görə, ölkə federativ əsaslı dövlət ola bilər"*

***Sədrəddin Soltan:** "Məhəmməd Xatəminin prezidentliyinin birinci dövründə təbliğat kampaniyası zamanı İranda fars olmayan millətlərin mədəni məsələlərinin həlli ilə bağlı fikirlər söylədi, amma heç bir addım atmadı"*

Biz o dönəm bununla bağlı Daxili İşlər Nazirliyimizdə 10 bölgə müəyyənləşdirmişdik. Amma konstitusiyaya görə federativ ola bilmərik" - deyə sabiq prezident qeyd edib. Məlumatlara görə, İran rəsmiləri bundan əvvəl də federal hökumət modeli haqqında təkliflər irəli sürüblər. Amma qeyri-fars fəalların əksinə, onların söz etdiyi federativ modeldə dil, etnik kimlik və digər demoqrafik xüsusiyyətlər yerinə, daha çox iqtisadiyyat və iqlim şəraiti əsas tutulur.

**İranın federallaşmalı olduğunu irəli sürən M.Xatəminin fikirlərini şərh edən "Orta Doğu" Araşdırmalar Mərkəzinin rəhbəri Sədrəddin Soltan "Bakı-Xəbər"ə bildirdi ki, 1925-ci ilə qədər Qacar Xanlar Birliyi federativ əsasda dövlət olub və Qacarın dövründə Azərbaycanda da, İranda da xanlıqlar olub.** Bu xanlıqların hər biri öz fəaliyyətində müəyyən muxtariyyətə malik idi. "Ağa Məhəmməd şah Qacar Qarabağ xanının təslim olmasını istəyirdi. O deyirdi ki, dövlətin vergisini ödə və Ağa Məhəmməd şah Qacarın tacını tanı. İbrahimxəlil xan isə Rusiyanı özünə qiblə hesab etmişdi. O dövrdə Azərbaycanda Bakı, Gəncə, Urmiya xanlıqları varıydı və bunların hər biri də dövlətin bir federasiya subyekti idi. Azərbaycan parçalanandan sonrakı dövrlərdə İran adında bir dövlət yaratdılar. Məhəmməd Rza şah Pəhləvinin dövründə İranın 4-5 əyalətini bölüb 10 əyalət yaratdılar. O dövrdə Azərbaycan hələ 7-8 hissəyə bölünməmişdi. Amma indi İranda təxminən 32-33-ə yaxın əyalət var. Xorasan, Ərdəbil və digər əyalətləri hissələrə bölüb müxtəlif əyalətlər yaratdılar. Əvvəllər Ərdəbil əyaləti mərkəzi Təbriz olan Şərqi Azərbaycan əyaləti ilə eyni bölgədə idi. Sonradan Ərdəbili ayrı bir əyalət etdilər. İran hakimiyyəti bununla iqtisadi zonalar yaratmağa çalışırdı. Doğrudur, o elan edirdi ki, bürokratik əngəlləri aradan qaldırmaq üçün bunu edir, amma, əslində, milli ərazilərin sahəsini azaldırdı. Tutaq ki, Azərbaycanın Ərdəbil bölgəsinin bir hissəsini Rəşd tərəfə verməklə Azərbaycan ərazisi bölündü. Yaxud Xorasanda oxşar hadisələri etməklə türkmənlərin tarixi ərazilərini azaltdılar. İranda əyalətlərin sayının azaldılması, dövlət idarəetmə quruluşunun parlamentar sistemə keçməsi və ikipalatalı parlamentin yaradılması, əyalətlərin müəyyən iqtisadi əraziyə bölünməsi məsələsi tarixən olub. Sadəcə olaraq, indiki şəraitdə bu məsələnin gündəmə gəlməsi vəziyyətin heç də qənaətbəxş olmadığını deməyə əsas verir" - deyə bildirən ekspertin sözlərinə görə, İran hakimiyyəti, fars mərkəzli düşüncə sisteminin daşıyıcıları ölkədə milli məsələni həll etməyə çalışırlar: "İran bölünmüş millətlər həbsxanasıdır. Şərq tərəfdə bəluclar, türkmənlər, şimalda Azərbaycan türkləri, cənubda ərəblər və s. Bunların bir hissəsi İranın ərazisində qalıb, bir hissəsi ya müstəqil olub, ya da başqa bir dövlətin tərkibindədir. Bu problemi həll etmək İran üçün vacibdir, çünki artıq millət məsələsi ortalığa çıxıb. Tarixən,Tudə Partiyasının proqramında milli məsələ vardı. Məhəmməd Xatəminin prezidentliyinin birinci dövründə təbliğat kampaniyası zamanı İranda fars olmayan millətlərin mədəni məsələlərinin həlli ilə bağlı fikirlər söylədi, amma heç bir addım atmadı. O, prezidentliyinin növbəti mərhələsində isə, ümumiyyətlə, milli-mədəni haqlar məsələsinə toxunmadı, birbaşa iqtisadi məsələni ortalığa atdı və yaddan çıxartdı. Məhəmməd Xatəmi 100 il bundan əvvəlki ərazi bölgüsünə qayıdılmasını təklif edir. İranın mövcud konstitusiyasına görə, ölkə federativ əsaslı dövlət ola bilər".

S.Soltanın sözlərinə görə, əsas qanunda göstərilir ki, İranda əyalətlərdə məclislər təşkil olunmalıdır. "İndiyə qədər Şərqi Azərbaycan əyalətinin məclisi yoxdur. Bu əyalətlərin özünün yerli məclislərinin olması elə federativ normaların prinsiplərindəndir. Tutaq ki, Rusiya federativ dövlətdir. Bu dövlətin hər bir vilayətinin, respublikasının öz parlamenti var. İranın da mövcud konstitusiyasında yerli məclisin olması, dövlətin federativ əsaslarla idarə olunması üçün müddəalar var. Bölgədəki və eləcə də dünyadakı prosesləri anlayan adamlar çox gözəl bilirlər ki, İran indiki idarəetmə sistemində və hakimiyyət formasında qala bilməz. İran hər mənada dəyişilməlidir. Təkliflərdən biri də federativ əsasda dövlətin idarə olunmasıdır. Bir müddət əvvəl iqtisadi cəhətdən dövlətin federallaşması təklifi olunurdu. Yəni hər bir əyalət iqtisadi problemləri ilə bağlı fəaliyyət göstərə bilərdi. Məsələn, paytaxtı Urmiya olan Qərbi Azərbaycan əyaləti dünyanın istənilən ölkələri ilə İran konstitusiyası çərçivəsində əməkdaşlıq edə bilər və s. Əvvəllər İrana federalizmin gəlməsi üçün böyük bir hərəkat yaranmışdı. O vaxtı bu hərəkatın qarşısını aldılar. İndi yenidən çıxış yolu axtarırlar. İqtisadi sanksiyalar, digər tərəfdən, İranın dünyada terrorizmi dəstəkləyən bir dövlət kimi tanınması və s. məsələlər Məhəmməd Xatəmi kimi ölkəsinin gələcəyini düşünən adamları bir sıra ciddi layihələri irəli sürməyə vadar edir" - deyə ekspert bildirdi.

***İradə SARIYEVA***

# Rusiya Ermənistanı "faşizmin qəhrəmanlaşdırılması" cinayətində rəsmən ittiham etdi

***Elşən Həsənov:** "Məhz Paşinyanın hakimiyyəti dönəmində Njdedən də təhlükəli olan, türk diplomatlarını qətlə yetirən ASALA canisinin nəşi Ermənistana gətirildi"*

**Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin "Nasizmin qəhrəmanlıq səviyyəsinə qaldırılması, nasizmin, neonasizmin və irqçiliyin, irqçi ayrıseçkiliyin, ksenofobiya və əlaqəli dözümsüzlüklərin artımına kömək edən digər praktikaların yayılması ilə bağlı vəziyyət haqqında" hesabatında Ermənistan və Azərbaycan haqda qeydlər var.**



Hesabatda bildirilir ki, Ermənistanın keçmiş hakim Respublika Partiyası "ifrat millətçi" kimi tanınan və barəsində Üçüncü Reyxlə əməkdaşlıq haqda informasiya olan Qaregin Njde kimi ziddiyyətli siyasətçinin xatirəsini əbədiləşdirmək üçün addımlar atıb.

Məruzədə dəqiqləşdirilir ki, Ermənistanın millətçi oriyentasiyalı siyasi təşkilatları arasında keçən ilin payızında siyasi partiya kimi qeydiyyatdan keçmiş "Sasna Tsrer" də var. Onun ideologiyasının əsasında "cinayətkar rus-türk sövdələşməsindən törənmiş" (Moskva müqaviləsi, 1921-ci il) Ermənistan Respublikasının tanınmasından imtina və "yeni dövlətin yaradılması" uğrunda mübarizə durur: "Partiyanın elan etdiyi məqsədlər ölkənin mövcud ərazisi və Dağlıq Qarabağ da daxil olmaqla, "yeni bir Ermənistan yaradılması" və milli referendum yolu ilə vətəndən kənarda yaşayan ermənilərin birləşdirilməsidir. Partiyanın proqram sənədlərində "rus müstəmləkəçiliyi tərəfindən pozulduğu" iddia edilən hüquqların bərpası, "Naxçıvanın və Axuryan çayının qərbinin" erməni idarəçiliyinə qaytarılması məsələsi vurğulanır".

Nazirlik xatırladır ki, bu partiyanın tərəfdarları 2016-cı ilin iyulunda PPX polisinin İrəvan şəhərindəki binasına silahlı hücum edib, onu ələ keçirib və nəticədə iki polis öldürülüb. Ötən ilin dekabr ayında keçirilmiş parlament seçkilərində bu partiya 1,82% səs qazanıb.

Hesabatın Azərbaycana həsr olunmuş bölməsində isə deyilir ki, Azərbaycan Respublikasında neonasizmin, irqçiliyin, irqçi ayrıseçkiliyin və ksenofobiyanın təzahürləri praktik olaraq yoxdur. Azərbaycan rəhbərliyi ölkəni "müxtəlif millətlərin və dinlərin nümayəndələrinin tolerant dövləti" kimi tanıdıb.

Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində vurğulayırlar ki, nasizm üzərində qələbədə sovet xalqının rolu haqqında tarixi yaddaşın saxlanması, eləcə də İkinci Dünya Müharibəsinin tarixinin saxtalaşdırılması və nasizmin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı mübarizə məsələlərində Azərbaycan Rusiyanın yanaşmalarını bölüşür. Ötən il Azərbaycan BMT Baş Assambleyasının "Nasizmin qəhrəmanlıq səviyyəsinə qaldırılmasına, müasir dövrün irqçilik, irqi ayrıseçkilik, ksenofobiya və əlaqəli dözümsüzlüklərin artmasına kömək edən digər praktikalara qarşı mübarizə" adlı qətnaməsini bəyənib.

Rusiya Xarici İşlər Nazirliyi belə bir məqama da diqqət çəkir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, milli, irqi və dini nifrət səbəbləri ilə cinayət törətmək cəza seçilərkən ağırlaşdırıcı hal hesab olunur.

Rusiyanın rəsmi dairələrinin Ermənistandakı vəziyyətlə bağlı belə həyəcan təbili çalması və bunun fonunda, Azərbaycanla bağlı müsbət münasibət aşılamasını necə dəyərləndirmək olar?

**Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə açıqlamasında bildirdi ki, hesabatla yaxından tanışdır:** "Çox doğru məqamlar təsbit edilib. Ancaq ermənilərin faşistlərə rəğbəti ilə bağlı keçmiş siyasi rəhbərliyin mövqeyi xüsusilə qabardılır. Biz görürük ki, Paşinyan hakimiyyətə gələndən sonra həmin irsdən imtina etməyib. Əksinə, həmin təbliğatı daha da gücləndirib. Məhz Paşinyanın hakimiyyəti dönəmində Njdedən də təhlükəli olan, türk diplomatlarını qətlə yetirən ASALA canisinin nəşi Ermənistana gətirildi. Gələcəkdə ona da abidə ucaltmaq fikirləri var.

Ermənistan parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanov Paşinyanda Hitlerin əlamətlərini gördüyünü açıqlayıb. Onun sözlərinə görə, bu şəxs Ermənistanı faşist Almaniyasına çevirmək istəyir. Bununla sübut olunur ki, Ermənistan dövlət ideologiyasında faşist xəttindən heç vaxt imtina etməyib. Njdenin heykəlini İrəvanda ucaltmaqla və abidənin ölkənin digər yerlərində də qoyulacağını bəyan etməklə, Ermənistan öz dövlət ideologiyasını simvolik formada olsa da, möhkəmləndirmək istəyir. Bununla həm də Rusiyaya göstərmək istəyirlər ki, Ermənistan ideoloji planda qətiyyən Rusiya Federasiyasının təbliğ etdiyi siyasi və mənəvi idealların təsiri altında deyil.

Müasir Ermənistan erməni millətçisi Qaregin Njdenin faşist ideologiyasını təcəssüm edir. Ermənistanın hakim rejimləri məhz bu ideologiyaya sadiqlik nümayiş etdirirlər. Bu insan Hitler Almaniyasının təbliğat nazirliyi ilə əməkdaşlıq edib. Hitler ideologiyasının erməni dilinə köçürən ideoloqlardan biri olub. Njdenin fikirləri ilə idarə olunan xeyli sayda etnik erməni Vermaxt mühafizə batalyonuna qoşulub. Unutmayaq ki, Krım yarımadasının yəhudi, ümumilikdə, yəhudi əhalisinə qarşı kütləvi repressiyaları məhz Vermaxt batalyonundan olan erməni hərbçilər həyata keçiriblər. Qaregin Njde türklərə qarşı da vuruşub. Buna görə də ermənilərin azərbaycanlı, türkiyəli, qazax, özbək və digər türkdilli xalqlara göstərdiyi mənfi münasibət təəccüb doğurmur. Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasını qınayacaq sosial qrup yoxdur. Yeni nəsil Njde və digər qəhrəman adlandırılan şəxslərin ideologiyasının təbliğatı altında böyüyür. Hesab edirəm ki, Rusiya rəsmiləri bu məsələnin üstünə bir az da ciddi getməlidirlər. Yalnız bir rəsmi bəyanatla hər şeyi bitmiş saymaq olmaz. Görün ermənilər nə qədər harınlayıblar ki, faktiki olaraq, ruslarla düşmən mövqedə olan Njdenin heykəlini Rusiya ərazisində də ucaltmağa çalışırlar. Hesabatda doğru olaraq vurğulanıb ki, Azərbaycanda belə meyllər yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

# İtaliyadan miqrantlara qarşı sərt qərar... Göz görə-görə suda boğulacaqlar, onları kimsə xilas edə bilməyəcək...

*Bəs Avropanın hər addımda öyündüyü insan haqları harda qaldı...*

**İtaliya hökuməti miqrantları ölümə sürükləyən qalmaqallı qərar qəbul etməyə hazırlaşır. Bəşəriyyət tarixində qara ləkə kimi dəyərləndirilən qərarla Roma hökuməti xilas edilmiş hər bir miqranta görə xilasedici humanitar təşkilatlara cərimə kəsəcək.**

Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, sahil təhlükəsizlik qüvvələrinin təlimatlarına əməl etməyərək dənizdən xilas edilən və İtaliya limanlarına aparılan hər miqrant üçün humanitar təşkilatlara 3500-5500 avro arasında maliyyə cəzası planlaşdırılır.



Humanitar təşkilatlar müəllifi İtaliyanın daxili işlər naziri Matteo Salvini olan layihəni dənizdə həyat qurtaran humanitar təşkilatlara qarşı savaş elanı kimi dəyərləndirib.

Layihə yaxın vaxtlarda hökumətə təqdim ediləcək, sonra isə parlamentdə səsverməyə çıxarılacaq.

Hesablamalara görə, sözügedən qərar 3 il əvvəl qüvvədə olsaydı, Sərhədsiz Həkimlər Təşkilatı dənizdən xilas edilən 80 min miqrant üçün təxminən 400 milyon avro cərimə ödəmək məcburiyyətində qalacaqdı.

Qərar hər fürsətdə dünyaya insan haqları dərsi keçməyə çalışan Avropada insanlığın iflası kimi dəyərləndirilir. İnsan həyatının xilas edilməsinin cinayət ?lan edildiyi İtaliyada artıq insanı yaşatmağın da bir cəzası olacaq.



## Vaşinqton bölgədəki ABŞ qüvvələrini vurmağa hazırlaşan İran raketlərinin peyk görüntülərini yaydı

**"New York Times" qəzeti ABŞ-ın Körfəzə hərbi qüvvə daşımasının arxasında İran ordusuna aid gəmilərə raket yükləndiyinə dair peyk görüntülərinin olduğunu iddia edib.**

Baki-xeber.com xəbər verir ki, qəzet ABŞ-ın İrana qarşı hərəkətə keçməsinə İrana məxsus raketlərin peyk görüntülərinin səbəb olduğunu yazır.

Adlarının açıqlanmasını istəməyən Amerika rəsmiləri peykdən çəkilmiş fotoşəkillərdə İran İslam İnqilabı Keçişçilərinə (SEPAH) aid gəmilərdə raket aşkarlandığını və bunun Vaşinqtonu hərəkətə keçirdiyini iddia edib.

Bildirilir ki, SEPAH-ın bir neçə İran limanından gəmilərə raketlər yüklədiyinə dair görüntülər əldə edilib.

Sözügedən görüntüləri Körfəzdəki ABŞ donanmasına bağlı gəmilərə hücum planı kimi dəyərləndirən kəşfiyyatın ticarət gəmilərinə qarşı da hücum planlarına dair məlumatlar aldığı iddia edilib.

Digər tərəfdən, İraqda şiə silahlıların Amerika əsgərlərinə hücum edə biləcəyinə dair məlumatların da əldə edilməsi Ağ Ev milli təhlükəsizlik müşaviri Con Bolton və ABŞ dövlət katibi Mayk Pompeonun İranın ABŞ hədəflərinə qarşı hücum hazırlığında olduğuna dair ehtimalların gücləndirdiyi bildirilir. Məhz bu məlumatlardan sonra ABŞ rəhbərliyi hərəkətə keçib.

18-20 may 2019
№ 89 (3987)



Bakı Xəbər

**İşğalçı Ermənistanda hadisələrin inkişaf axarı bu ölkədə yaxın təzlikdə ciddi daxili qarşıdurmaların olacağını göstərir. Bunun isə həm siyasi, həm də sosial-iqtisadi səbəbləri mövcuddur. Əvvəla, mövcud hakimiyyətə qarşı olan qüvvələr, xüsusən də "Qarabağ klanı" Nikol Paşinyanı devirmək üçün indi bütün qüvvələrini səfərbər etməyə başlayıb.**

# Köçəryan partiya qurur və ömürlük həbsə gedir - "Qarabağ klanı" baş naziri devirmək üçün hərəkətə keçdi



Digər tərəfdən, Ermənistanda pisləşən sosial-iqtisadi vəziyyət "Qarabağ klanı"nın hakimiyyətə qarşı daha aktiv fəadiyyətə keçməsinə və özünə dəstək qazanmasına imkan yaradır.

İndilikdə görünən budur ki, "Qarabağ klanı" yaxın təzlikdə Paşinyanı devirmək üçün daha mütəşəkkil qaydada hərəkət etməyə start verəcək. "Past" qəzeti bu xüsusda yazır ki, yaxın günlərdə Ermənistanın siyasi meydanında kifayət qədər ciddi və perspektivli yeni siyasi partiya ortaya çıxacaq. Məlumata görə, bu partiyada, əsasən, ictimaiyyətdə məşhur olan şəxslər toplanacaq. Qəzet partiyanın daha çox intellektual kəsim arasında fəaliyyətini genişləndirəcəyini və əyalətlərdə işə böyük əhəmiyyət verəcəyini bildirib. Qeyd edək ki, bundan öncə Ermənistanın eks-prezidenti Robert Köçəryan yeni partiyanın ortaya çıxacağını və onun Paşinyana böyük zərbə endirəcəyini bildirmişdi. Bundan öncə Köçəryan "Reuters" agentliyinə məktubla verdiyi müsahibədə qüvvətli müxalif güclərin Paşinyana qarşı birləşəcəyini deyib.

Özünün həbsini siyasi motivlərlə əlaqələndirən Köçəryan qeyd edib ki, indi Ermənistanda Paşinyana qarşı yeni siyasətçilər və siyasi partiyalar meydana çıxır. O bu siyasi qüvvələrlə birləşəcəyi ehtimalı ilə bağlı suala da müsbət cavab verib, lakin bunun hansı formada olacağına aydınlıq gətirməyib. "Məxməri inqilabın" heç də inqilab olmadığını və xalqın artan narazılığının nəticəsi olduğunu deyən Köçəryan vurğulayıb ki, Paşinyanın hakimiyyəti dövründə ölkədə müsbət istiqamətdə heç bir dəyişiklik baş verməyib: "Yalnız populizm, rəhbərlikdə diletantlıq və cəmiyyətdə aqressiya artıb". Gözlənir ki, Paşinyana qarşı yaranacaq yeni partiyaya da məhz Köçəryan rəhbərlik edəcək. Bunu nəzərə alan Paşinyan isə onu həbsdə saxlamaqla neytrallaşdırmağa çalışır. Elə bunun nəticəsidir ki, Köçəryan, eləcə də sabiq müdafiə naziri Seyran Ohanyan, müdafiə nazirinin keçmiş müavini, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş katibi Yuri Xaçaturov və Ermənistanın baş nazirinin keçmiş müavini Armen Gevorkyanın artıq məhkəməsi keçirilir. Xatırladaq ki, Nikol Paşinyan Ermənistanın baş naziri olandan sonra 2008-ci ilin 1-2 mart hadisələrinə görə cinayət işi təzələnib. O vaxt prezident olmuş Robert Köçəryan məsələ ilə bağlı 2018-ci il iyulun 27-də həbs olunub. Adları yuxarıda qeyd edilənlər konstitusiya quruluşunu devirmək və külli miqdarda rüşvət almaq, qanunsuz yolla əldə edilən vəsaitləri leqallaşdırmağa görə mühakimə olunur. Bundan başqa, Köçəryan həm də iş adamı Silva Ambarçumyandan 2 milyon dollar rüşvət alma iddiası ilə mühakimə olunur. Köçəryanın vəkillər komandasının üzvü Artyom Orbelyan bildirib ki, Silva Ambarçumyanın verdiyi ifadələr şər-böhtan xarakteri daşıyır: "Onun şəxsən Köçəryanla heç bir əlaqəsi olmayıb və onlar heç vaxt görüşməyib. Paşinyan keçmiş rəqiblərindən qisas alırsa, o zaman nə üçün ölkənin digər rəhbər şəxslərinə qarşı ittihamlar irəli sürülmür".

Qeyd edək ki, ərəb ölkələrində biznesi olan Silva Ambarçumyan keçən ilin noyabrında Ermənistana dəvət olunaraq xüsusi istintaq komitəsində dindirilib. Sonra onun Robert Köçəryanla üzləşməsi prosesi təşkil edilib. Silva Ambarçumyan bir daha bildirib ki, Köçəryan sabiq xarici işlər naziri Vardan Oskanyanın vasitəçiliyi ilə "1 mart" hadisələrindən əvvəl ondan 2 milyon dollar alıb. Köçəryanın cinayət materialına bu maddə də əlavə edilərsə, o zaman onu ömürlük həbs gözləyir. Bütün bunlar Köçəryanın Paşinyana qarşı daha effektiv siyasi mübarizə aparmasını əngəlləyir. Amma görünən budur ki, "Qarabağ klanı" ümumiyyətlə geri çəkilmək istəmir və onlar Paşinyanı devirməkdə israrlıdır. Bu səbəbdəndir ki, klanla Paşinyan arasında münasibətlər sürətlə pisləşir. Bunu sabiq iqtidar partiyası olan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da təsdiq edir. O, hətta Qarabağdakı separatçı rejimin də bu çəkişmənin əsas hədəflərindən biri olduğunu vurğulayır: "Nikol Paşinyan yenə də cəmiyyəti inqilabçılar və əksinqilabçılar olmaqla iki hissəyə ayırır və bu dəfə Qarabağı inqilabla təhdid edir". O qeyd edib ki, tarix bu gün bizə müxtəlif hay-küylü xadimləri xatırladır: "Hansılar ki, hakimiyyətə gəldikdən sonra islahatlar aparmaq və ictimaiyyəti birləşdirmək əvəzinə əks fəaliyyətə yol verərək, ölkə daxilində bölücü xətlər çəkib və iş görmək əvəzinə represiyalar aparıb". Şarmazanov belə tarixi faktlara nümunə olaraq Rusiyada bolşevikləri və ya Almaniyada, İtaliyada milli sosialistləri, yaxud faşistləri göstərib:

"Çox təəssüf ki, eyni xətt üzrə Ermənistanın inqilab komitəsinin rəhbəri Paşinyan da hərəkət edir. 9 mayda bütün xalqı birləşdirməli olan may bayramı günləri idi. Lakin gəlin görün, işğal altında olan Qarabağda "milli qəhrəmanlar"ın yüksək dəyərləndirilməsi dövrümüzün diktatorunun xoşuna gəlməyib. Bu reallıqdan əsəbiləşən Nikol ictimaiyyəti növbəti dəfə inqilabçılar və əksinqilabçılar olmaqla ikiyə bölür və bu dəfə Qarabağı inqilabla təhdid edir. Sağa-sola təhdid etməyin, məqsədyönsüz mətbuat konfranslarında bağırmağın və uşaqlıq arzuları həyata keçməyən ləçər uşaq kimi özünü aparmağın artıq yetərlidir. Nəhayət, sənin fikrini bölüşməyən insanların olduğu və sənin hörmətsiz addımların nəticəsində artacağı ilə barışmalısan. Bu insanlar sənin keyfiyyətsiz və məzmundan kənar kabab yeməyin, asfalta sərilməyin, bağırmağın, velosiped sürməyin siyasəti ilə həmrəy deyillər. Hələ ki, prinsipial xadimlər və insanlar olduğunu dərk etməyin zamanıdır. Amma bizdə canavar üzərinə qoyun dərisi keçirib, quzuları qoruyan nəzarətçiyə çevrilib. Xoruz təbliğatçı geyimi əynində tribunaya çıxıb ağıl aşılayır". Bütün bunlar bir daha Ermənistanda daxili qarşıdurmanın yenidən özünün pik həddinə çatmaqda olduğunu göstərir.

***Nahid SALAYEV***

**Ermənistanda cinsi cinayət qurbanları arasında uşaqların nisbəti olduqca yüksəkdir. Sözügedən məsələ ilə bağlı erməni mətbuatında 2016 və 2017-ci illərə aid sensasion nəticələr yayılıb.**

# Ermənistan cəmiyyətində mənəvi aşınmanın son həddi - pedofiliya sürətlə yayılır...

***Mübariz Əhmədoğlu:*** *"Cinsi zəmində baş verən cinayətlərlə bağlı statistika göstərir ki, erməni cəmiyyətində mənəvi deqradasiya böyüyür"*



*"Paşinyan bundan öz rəqiblərinə qarşı bir alət kimi istifadə edir"*

Belə ki, məlumata görə, ölkədə 2016-cı ildə qeydə alınmış 160 belə cinayət əməlinin qurbanlarının 115-i uşaqlar olub. Cinayət anında 115 zərərçəkən 5-17 yaş aralarında olublar. 2017-ci ildə Ermənistanda baş vermiş 164 belə cinayətin isə 113-də qurbanlar uşaqlar olub.

Görünən odur ki, Ermənistan cəmiyyətində mənəvi deqradasiya get-gedə daha da dərinləşir.

Bir müddət əvvəl ölkə parlamentində qadın-transgender Lilit Martirosyan çıxış edib. Onun sözlərinə görə, inqilaba qədər parlamentdə transgenderin çıxış edə bilməsini təsəvvür etmək olmazdı. Qəribədir ki, onun məlum çıxışı ölkə parlamentində alqışlarla qarşılandı. Baxmayaraq ki, bu, ölkə ictimaiyyətində birmənalı qarşılanmayaraq, müəyyən müzakirələrə səbəb oldu. Ancaq bu müzakirələr elə də ictimai rəyə təsir etmədi. Sonra məlum oldu ki, transgenderi parlamentə Paşinyanın "Mənim addımım" fraksiyasından olan deputat Marina Karapetyan dəvət edib.

Bir sözlə, Ermənistanda cinsi cinayət qurbanları arasında uşaqların çoxluq təşkil etməsi, geylərin parlamentdə rahat çıxış etməsi və buna geniş şəraitin yaradılması Ermənistan cəmiyyətində mənəvi deqradasiyanın əyani göstəricisidir. Hansı ki, bu deqradasiya daha da dərinləşərək miqyası böyüməkdədir.

O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, Ermənistan cəmiyyətində mənəvi deqradasiyanın dərinləşməsi qarşısıalınmaz hal alıb:** "Elə Paşinyanın özü bəyan etdi ki, Ermənistanın bir çox problemi uşaq bağçasından başlayır. Yəni uşaq bağçasında tərbiyə düzgün qurulmur, metodika düzgün deyil, problemlər vaxtında aradan qaldırılmır. Cinsi zəmində baş verən cinayətlərlə bağlı statistika göstərir ki, erməni cəmiyyətində mənəvi deqradasiya böyüyür. Eyni zamanda, pedofiliyaya maraq artır. Ölkədə demoqrafik problemlərin miqyası genişlənir. Başqa bir tərəfdən, Paşinyan deyir ki, o, klassik milli erməni ailəsinin tərəfdarıdır. Ancaq o tərəfdən də cinsi azlıqların fəallaşmasına şərait yaradır. Ölkədə cinsi azlıqların siyasi aktivliyinin artmasında maraqlıdır. Ona görə maraqlıdır ki, Paşinyan cinsi azlıqların siyasi aktivliyindən istifadə edərək öz rəqiblərini hədələyir, onlara cinayət işi açır. Parlamentdə cinsi azlığın çıxışına insan haqları komitəsinin rəhbəri Naira Zohrabyan öz narazılığını bildirmişdi. Paşinyan az qala onu həbs etdirmək istəyirdi. Sadəcə, Paşinyan AŞPA-ya səfərə hazırlaşdığı üçün bu məsələni dayandırdı. Ona bununla bağlı sual veriləndə utanmadan bütün bunları AŞPA-da dandı. Bütün bunları deməyimdə məqsəd odur ki, geylərlə bağlı məsələ artıq Paşinyanın siyasi marağındadır. Bundan öz rəqiblərinə qarşı bir alət kimi istifadə edir. Mənəvi deqradasiyanın dərinləşməsi onu narahat etmir".

***Vidadi ORDAHALLI***

# Tramp Türkiyə ilə əlaqələrin bərpa oluna biləcəyinə son ümidləri də qırdı - Türkiyə statusdan məhrum edildi...

**Son günlər dünya çapında qardaş Türkiyə ilə bağlı maraqlı proseslər cərəyan edir. Sanki bir qrup ölkə müxtəlif istiqamətlərdən Türkiyəyə təzyiq etməkdə maraqlıdır və bu yöndə birgə fəaliyyət ortaya qoyur.**

Bu xüsusda ABŞ-la Türkiyənin arasında bir soyuqluğun, hətta kəskin ziddiyyətin yaşandığı ortaya çıxır. Məlumdur ki, Suriyanın şimalında, Türkiyə ilə həmsərhəd olan ərazidə də bu iki ölkənin mövqeyi haçalanır. Faktiki olaraq, ABŞ-ın kürd qruplaşmalarına dolayı dəstəyi səbəbindən Türkiyə həmin bölgədəki separatizm problemini həll edə bilmir. İkinci təzyiqi isə ABŞ iqtisadi sahədə etmiş oldu. Belə ki, ABŞ Prezidenti Donald Tramp öz ölkəsinin Türkiyə ilə güzəştli ticarət rejimini ləğv edib. Bu barədə Ağ evin mətbuat xidməti məlumat yayıb. ABŞ Prezidentinin bəyanatında deyilir: "Mən qərara gəldim ki, onun (Türkiyənin) iqtisadi inkişafına əsaslanaraq, mayın 17-dən Türkiyənin inkişafda olan ölkə - resipient statusuna yekun vermək lazımdır". Xatırladaq ki, bu qərarı qəbul etmək niyyətini D.Tramp hələ mart ayında bəyan etmişdi. Türkiyə ətrafında başqa bir gərginlik ocağı Aralıq dənizində yaşanır. Həmin bölgədəki enerji resursları üstündə Türkiyə böyük bir savaşa cəlb olunmaq ərəfəsindədir. Hazırda bu prosesə Türkiyə ilə yanaşı, Rusiya, Çin, ABŞ, Avropa və bəzi ərəb ölkələri də cəlb olunub.

Qeyd edək ki, ABŞ Geologiya Xidməti 2010-cu ildə Şərqi Aralıq dənizi hövzəsinin qaz ehtiyatlarını 122 trilyon kubmetr dəyərləndirib. Elə bundan sonra bölgədə geosiyasi, geoiqtisadi rəqabət başlanıb. Son aylarda isə bu daha kəskin xarakter alıb. Qardaş Türkiyə də məhz bu fonda prosesin mərkəzində yer alır. Qeyd edək ki, Cənubi Kipr Şərqi Aralıq dənizini, Şimali Kipr Türk Cümhuriyyətinin ətrafı da daxil olmaqla, 13 ayrı bölgəyə bölərək təbii qaz axtarışları üçün lisenziya verib. Ancaq nə Türkiyə, nə də Şimali Kipr Türk Cümhuriyyəti Cənubi Kiprin bu addımını qəbul edir. Türkiyə xüsusilə yunanların "3-cü bölgə" adlandırdığı ərazidə təbii qaz axtarışlarının ciddi bir böhran yaradacağı barədə xəbərdarlıq edib. Amma ilk dəfə ötən ilin fevralında İtaliyanın ENİ şirkətinə aid "Saipem 12000" platforması təbii qaz axtarışları üçün Şimali Kipr Türk Cümhuriyyətinin sahillərində yerləşən "3-cü bölgə"yə gəlib. Türkiyənin döyüş gəmiləri şirkətlərin fəaliyyətinə mane olub. Nəticədə ENİ bölgədə təbii qaz axtarışlarından imtina etməyə məcbur olub. İtaliya, Fransa, İngiltərə, Almaniya və Maltanın bölgədə təbii qaz axtarışlarına, Cənubi Kiprlə yanaşı, Yunanıstan da dəstək verir.





***Zərdüşt Əlizadə:*** *"Biznesdə hansısa zəif şirkətə təzyiq etmək olar, ancaq Türkiyə zəif şirkət deyil, güclü dövlətdir"*

***Əhəd Məmmədli:*** *"Türkiyə dövləti güclənməyə davam etdikcə, nəinki dostlar, hətta düşmənlər də üzünü Ankaraya çevirəcəklər"*



Türkiyə isə burada Şimali Kipr Türk Cümhuriyyətinə aid sularda enerji resurslarının axtarışına start verib. Lakin Avropa İttifaqı Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti Ali Nümayəndəliyi Türkiyənin Şərqi Aralıq dənizində apardığı axtarış-qazıntı işlərini dayandırmasına dair çağırış edib. ABŞ da Türkiyəni Şərqi Aralıq dənizində enerji axtarışlarını dayandırmağa çağırıb. Türkiyə ətrafında nə baş verir və bu, yaxın gələcək üçün hansı perspektivləri vəd edir?

**Politoloq Zərdüşt Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunların hamısı Trampın naşılığı ucbatından yaşanır:** "Tramp istəyir ki, bütün dünya onun sözü ilə oturubdursun. Türkiyə ABŞ-la müttəfiq və dost ölkə münasibətində olub. Ancaq bu heç də o demək deyil ki, hər addımda ABŞ-a baş əyəcək. Türkiyənin öz dövləti maraqları var və daim bu maraqların uğrunda mübarizə aparır. Bütün istiqamətlərdə Türkiyə öz işini görəcək. Heç bir təzyiqin ona təsiri olmayacaq. Xüsusilə də Şimali Kipr ətrafında baş verənlərdə. Yadınıza tarixdən bir hadisəni salmaq istərdim. Vaxtilə yunan nasistləri Şimali Kiprdəki türkləri etnik təmizləməyə məruz qoyurdular. Həmin vaxt Bülent Ecevitin başçılığı ilə Türkiyə hökuməti toplantı keçirdi. ABŞ-ın dövlət katibinin müavini gəlib Türkiyəyə ismarıc verdi ki, Türkiyə heç bir halda Şimali Kiprdə baş verənlərə qarışmamalıdır. Türklər "baş üstə" deyib onu yola saldılar. Gedəndən sonra əmr verildi və Türkiyə Silahlı Qüvvələri Kiprin şimal hissəsini tutdu. Nəticədə yunan faşistləri oradan qovuldu. O vaxtdan bəri bütün Avropa və ABŞ dəfələrlə Türkiyədən qoşunu oradan çıxarmağı tələb edir. Türkiyə isə deyir ki, mümkün deyil, çünki oradakı türk vətəndaşlarının təhlükəsizliyini qoruyur. Eyni prosesi biz Suriyanın şimal-şərqində yaşayan türkmənlərlə bağlı müşahidə etdik. Türkiyə silah gücünə onların hüquqlarını müdafiə edir. Dünya dağılsa da, bunu edəcək. İndi də Aralıq dənizində kəşf olunan qaz yataqlarının istismarından Türkiyəni kənarda saxlamağa çalışırlar. Şimali Kiprin şelfində olan həmin yataqlarda geoloji işlərin aparılmasında Türkiyə özünü hamıdan haqlı sayır. Bu proseslərin heç birində Türkiyə kiməsə baş əyməyəcək. Tramp bizneslə siyasəti qarışdırıb. Biznesdə hansısa zəif şirkətə təzyiq etmək olar, ancaq Türkiyə zəif şirkət deyil, güclü dövlətdir".

**Politoloq Əhəd Məmmədli isə hesab edir ki, Yunanıstan hər zaman olduğu kimi, bu dəfə də Türkiyəyə qarşı təxribat hazırlayır.** Ekspertin sözlərinə görə, Yunanıstan Avropa Birliyi və ABŞ vasitəsilə Türkiyənin önünü kəsməyə çalışır: "Lakin cəhdlər mənasızdır. Nə Yunanıstan, nə də güvəndikləri Avropa Birliyi və ABŞ Türkiyəyə nəsə edə bilər. Avropa Birliyində hər bir dövlətin öz marağı var və bu maraqlar ümumi maraqları aşır. Bunun əyani sübutunun dəfələrlə şahidi olmuşuq. Son dövrlər Türkiyə Almaniya ilə münasibətləri düzəltməyə doğru addımlar atır. Türkiyənin İtaliya ilə də iqtisadi münasibətləri genişlənir. Həmçinin, Avropada Türkiyənin Böyük Britaniya kimi gizli müttəfiqi var. Yunanlar, sadəcə, Fransanı yanlarına ala bilərlər, ancaq bunun da effekti olmayacaq".

Siyasi şərhçinin fikrincə, Ankara hökuməti Aralıq dənizi məsələsində dövlətlərlə ayrı-ayrılıqda razılığa gələ bilər: "Yunanlara qışqırıb-bağırmaq qalacaq. Afina görsə ki, Brüsseldən lazımi dəstək ala bilmir, tələblərindən geri duracaq. Ümumiyyətlə, Türkiyə dövləti güclənməyə davam etdikcə, nəinki dostlar, hətta düşmənlər də üzünü Ankaraya çevirəcək".

***Məhəmmədəli QƏRİBLİ***



# Ermənistanın tarixi müttəfiqi sayılan Fransa da Azərbaycanın ən güclü hərbi təchizatçılarından birinə çevrilir

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Bugün Ermənistanda ən böyük narahatlıq predmetinə çevrilən məqamlardan biri Azərbaycanın müxtəlif xarici ölkələrdən aldığı müasir hərbi texnologiyalardır. İrəvanın bütün etirazlarına baxmayaraq, Azərbaycan ən fərqli ölkələrlə hərbi əməkdaşlığını böyük uğurla davam etdirir. Bunun nəticəsidir ki, indi ordumuzda təkcə Rusiya yox, həmçinin İsrail, Türkiyə, Pakistan, Belarus, eyni zamanda bir sıra Qərb ölkələrinin istehsal etdiyi texnologiyalar da mövcuddur.**

Bunlara paralel olaraq yerli istehsalın da həcmi və çeşidi sürətlə artır.

Proseslərin gedişi göstərir ki, Azərbaycanın hərbi texnologiyalar sahəsində həm yerli istehsal olan məhsullarının sayı daha artacaq, həm də bu prosesə yeni ölkələr, əsasən də Qərb dövlətləri cəlb olunacaq. Məhz bu amil də işğalçı Erəmnistan üçün yeni sürpriz və Azərbaycanın növbəti zərbəsi sayılır. Çünki Ermənistan birmənalı şəkildə Qərb şirkətlərinin Azərbaycanla hərbi əməkdaşlığına qarşıdır və buna daim rəsmi səviyyədə öz etirazını bildirib. Amma görünən budur ki, Ermənistanın etirazları kimsə tərəfindən nəzərə alınmır. Əksinə, ən müxtəlif dövlətlər Azərbaycanla hərbi əməkdaşlığın daha da genişlənməsində maraqlıdır. Bunu konkret olaraq Çexiyanın timsalında görmək olar. Belə ki, Çexiya Azərbaycanda müxtəlif layihələrin maliyyələşdirilməsi, həmçinin müdafiə sənayesi məhsullarının istehsalının təşkilində maraqlıdır. Çexiya Deputatlar Palatasının sədri Radek Vondraçek bu xüsusda deyib: "Çexiya bankları iri maliyyə vəsaitinə malikdirlər və onları yatırmağa hazırdırlar. Azərbaycan çox yaxşı nüfuza malikdir, niyə istehsal burada təşkil olunmasın". Onun sözlərinə görə, 2015-ci ildən Bakı və Praqa Azərbaycanda müdafiə sənayesi məhsullarının istehsalının təşkilinə dair danışıqlar aparır: "Düşünürəm ki, hərəkətə keçməyin zamanı çatıb".

Qeyd edək ki, bundan əvvəl Azərbaycan Çexiyadan RM-70 "Vampir" reaktiv yaylım atəşi sistemləri və "DANA" yüksəkdəqiqlikli, özüyeriyən artilleriya qurğuları alıb. Bu silah tədarükü Ermənistan rəhbərliyində az qala əsəbdən qıcolmalara gətirib çıxardı. Amma İrəvanın etirazları heç bir nəticə vermədi və indi görünən budur ki, Çexiya ölkəmizlə hərbi əməkdaşlığını daha da genişləndirməyi nəzərdə tutur. Amma bu sırada təkcə Çexiya yer almır. Belə ki, Azərbaycan Fransanın "MBDA Systems" şirkətinin ölkəmizə ASTER 30 SAMP/T və VL "Mica" hava hücumundan müdafiə sistemlərinin tədarükü üçün danışıqları yekunlaşdırmaq üzrədir. Fransa dövləti bu müdafiə sistemlərinin Azərbaycana satılmasına icazə verib. Bu, Azərbaycanın ciddi diplomatik-hərbi nailiyyəti hesab edilə bilər. Çünki ilk dəfədir ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Qərb ölkəsi, eyni zamanda Minsk Qrupuna həmsədrlik edən Avropa nəhəngi Fransa Azərbaycana, müdafiə təyinatlı da olsa, müasir silah sistemlərinin satılmasına razılıq verir. Məhz bu məqam da Ermənistanda şok effekti yaradır. Erməni hərbi ekspert Van Ambartsumyan bununla bağlı bildirib: "Azərbaycan mühüm hərbi uğurlar əldə edir. Paşinyan niyə Fransanın Azərbaycana zenit raket komplekslərini satması barədə danışmır?" Onun sözlərinə görə, hazırda Fransa Azərbaycana ASTER 30 SAMP/T və VL "Mica" komplekslərini satır: "Azərbaycan silahlanmasını genişləndirir. Hazırda çox vacib hadisə baş verməkdədir. Ermənistanın dostu, NATO-ya üzv ölkə olan Fransa ASTER 30 SAMP/T və VL "Mica" zenit raket komplekslərini Azərbaycana satır. Bu raket kompleksləri 100 kilometr məsafə dərinliyədək məhvetmə qabiliyyətinə malikdir. Hədəf kimi ballistik raketlər, o cümlədən "İsgəndər" raketləri, qanadlı raketlər, təyyarə və helikopterlərin olduğu bildirilir. Bu raketlər Fransa istehsalıdır və ən yaxşı raket sinfindən hesab olunur".

Erməni ekspertin sözlərinə görə, Ermənistan hakimiyyəti bu razılaşma barədə heç bir şey danışmır: "Paşinyan niyə öz "Facebook" səhifəsində bu barədə yazmır? Köhnə hakimiyyəti tənqid etməyi çox sevirdilər, bəs özləri niyə susurlar?". O əlavə edib ki, Fransanın münaqişə edən tərəflərə silah satılmamasına dair hüquqi öhdəliyi yoxdur. Amma İrəvanda bu narahatlığa baxmayaraq, Fransanın "Eurosam" şirkətinin Biznes Təkmilləşdirmə və İxrac üzrə meneceri Filip Çopin ölkəmizlə hərbi əməkdaşlığın daha da dərinləşməsində maraqlı olduqlarını bildirib: "Azərbaycanın tələblərinə cavab verəcək müxtəlif məhsullar üzərində işləyir və təkliflər edirik. Şirkətimizin baş qərargahı Parisin cənubunda yerləşir və 100-ə yaxın idarə heyəti var. Şirkətin investorları Avropanın ən böyük və ən təcrübəli müdafiə kontraktorlarıdır". ASTER 30 SAMP/T raketlərinin Azərbaycana satışı barədə məsələlərə də toxunan şirkət nümayəndəsi ölkəmizin tələblərinə cavab verən məhsulların üzərində işləndiyini vurğulayıb. Onun sözlərinə görə, hazırda şirkətin raketləri və raket sistemləri 4 ölkəni - Fransa, İtaliya, Səudiyyə Ərəbistanı və Böyük Britaniyanı təchiz edir.

Ekspertlər isə Fransadan alınan yeni texnologiyalar sayəsində Azərbaycanın hərbi üstünlüyünün daha da artacağını proqnozlaşdırır. Elə alınan ASTER 30 SAMP/T zenit-raket kompleksi də qoşunların və yürüşdə olan mexanikləşdirilmiş birləşmələrin, böyük əhəmiyyətə malik stasionar obyektlərin geniş spektrdə hava hədəflərinin kütləvi aviasiya hücumunun qarşısını almaq üçündür. Bura taktiki qanadlı raketlərdən tutmuş bütün tiplərdə təyyarə və vertolyotlar, habelə müxtəlif pilotsuz uçan aparatlar daxildir. ASTER 30 SAMP/T onları sutkanın istənilən vaxtında, istənilən hava şəraitində aşkar edib vura bilir. Özü də düşmən tərəfinin müxtəlif tipli siqnalpozucu vasitələrdən istifadə etdiyi şəraitdə. ASTER 30 SAMP/T 360 dərəcə bucaq altında dairəvi atəş aça bilir, modul konstruksiyaya və yüksək manevrli raketlərə malikdir. Bu raketlər istənilən hava hədəflərini məhv edə bilər. Hazırda həmin sistemlər Fransa və İtaliyanın silahlanmasında yer alır, NATO-nun Avropada vahid havadan müdafiə sisteminin mühüm komponentini təşkil edir. ASTER 30 SAMP/T kompleksi yüksək atış sürətinə malikdir, 8 ASTER 30 SAMP/T raketi cəmi 10 saniyə ərzində buraxılır. Bu zaman kompleks cəmi 2 nəfərlik heyət üzvü ilə idarə olunsa da, 10 hava hədəfini eyni anda təqib edə bilir. Kompleksi işləyib hazırlayanlar qeyd edirlər ki, ASTER 30 SAMP/T radarlara yaxalanma ehtimalı aşağı olan geniş diapazonda hava hədəflərinə qarşı yüksək effektivliyə malikdir. Kompleksin hava hədəflərini vurma məsafəsi təyyarələr üçün 3-100 kilometr, ballistik raketlər üçün isə 3-35 kilometr təşkil edir. Hədəfi maksimal vurma hündürlüyü 25 kilometrdir. Kompleks taktiki və ballistik raketləri 600 kilometrə qədər məsafədən aşkar edib izləyir. Bu zenit-raket kompleksləri taktiki-texniki göstəricilərinə görə Rusiyanın S-400 zenit-raket komplekslərinə yaxındır.

Qeyd etmək lazımdır ki, Azərbaycan son illər geniş spektrdə hücum təyinatlı silah sistemlərinin tədarükü ilə yanaşı, müdafiə təyinatlı sistemlər - hava hücumundan müdafiə sistemləri ilə silahlanmanı da xeyli sürətləndirib. Belə demək olar ki, Azərbaycan hazırda postsovet regionunda, Rusiya istisna olmaqla, ən güclü havadan müdafiə sistemi formalaşdırmış ölkədir. Fransadan alınan VL "Mica" zenit raket kompleksləri isə bu sahədə Azərbaycanın mövqelərini daha da gücləndirir. Bunlar yaxın mənzilli sistemlərdir və quru qoşunlarının bölmələrinin, aviabazaların, komanda məntəqələrinin və gəmilərin qanadlı raketlərin, idarəolunan aviabombaların, təyyarələrin, vertolyotların və PUA-ların hücumundan qorunması üçün nəzərdə tutulub. Kompleks sutkanın istənilən vaxtında və istənilən hava şəraitində işləyir, VL "Mica" "hava-hava" raketlərinin bazasında MBDA firması tərəfindən işlənib hazırlanıb. Kompleks öz yığcamlığı, yüksək effektivliyi ilə tanınır. VL "Mica" zenit-raket kompleksinin yerüstü variantı 4 raketdən, radardan və müxtəlif şassilər üzərində quraşdırıla bilən buraxılış qurğusundan ibarətdir. Raketlərin maksimal məsafəsi 10 kilometrdir. Bu yığcam zenit raket kompleksləri, xüsusən dağlıq relyefdə vertolyotlara və PUA-lara qarşı istifadə üçün effektli sayıla bilər.

Eləcə də ölkəmizdə hava hücumundan müdafiə sahəsində silahlanma Belarusdan "Buk-M" komplekslərinin modernizə edilmiş variantları və Rusiyadan S-300 PMU "Favorit" sistemlərinin alınması ilə geniş vüsət alıb. Lakin Azərbaycan təkcə Rusiya və Belarus hərbi sənayesinin bu sahədəki nümunələrini əldə etməyib. Son illərdə İsraildən dünyada ən təkmil hava hücumundan müdafiə sistemlərindən biri sayılan "Barak-8" komplekslərini, o cümlədən "Green Pine" radarlarını alıb. Hərbi mütəxəssislər də təsdiq edirlər ki, Azərbaycan hava hücumuna qarşı eşelonlaşdırılmış güclü müdafiə sistemi qurub və bu sistem praktiki olaraq istənilən hava hədəfini dəf edə bilər.

Fransa ilə yanaşı, Azərbaycan İtaliyanın iri hərbi-sənaye nəhəngi "Leonardo" şirkətindən də müxtəlif təyinatlı hərbi texnika, o cümlədən aviasiya vasitələri almağa başlayıb. Artıq məlumdur ki, Azərbaycan İtaliyadan 10 ədəd M-346 təlim-döyüş təyyarəsi alıb. Təyyarədə iki turboreaktiv mühərrik quraşdırılıb və bu mühərriklərin sayəsində M-346 saatda 1050 kilometrə qədər sürət yığa bilir. Şirkət təyyarəni daha da təkmilləşdirərək onu təlim-döyüş təyyarəsinə çevirib. M-346 təyyarələrinin təlim-döyüş versiyası qanadaltı asmalarda 3 tona qədər ağırlığında cəmi 5 bomba daşıya bilir. Ötən il isə Almaniyanın "Rheinmetall" ("Reynmetall") hərbi sənaye korporasiyası Azərbaycanla əməkdaşlıq barədə danışıqlar apardığını elan edib. "Reynmetall" korporasiyası müxtəlif tipli ağır və yüngül zirehli döyüş texnikası, iriçaplı artilleriya sistemləri, minaatanlar və müxtəlif digər silahlar istehsal edir. Əfsanəvi "Leopard" tankları da bu şirkət tərəfindən istehsal olunur. Bütün bunlar onu göstərir ki, Azərbaycan artıq inkişaf etmiş Qərb dövlətlərindən silah sistemlərinin alınmasında on illərdir davam edən qadağaları aradan qaldıra bilib. Məhz bu vəziyyət də Ermənistan üzərində hərbi üstünlüyümüzü əhəmiyyətli dərəcədə artırdığından, düşmən ölkədə böyük təşviş yaradır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**İngiltərənin "Arsenal" klubu erməni "toruna" düşdüyünü açıq etiraf etmiş oldu. Hələ bir neçə gün əvvəl heç klubun əsas heyətində yerini möhkəmləndirməyi bacarmayan erməni əsilli bir futbolçunun milli mənsubiyyəti üzərindən şou göstərilməyə başladı. Guya həmin şəxsin erməni əsilli olması klub oyunçularının təhlükəsizliyinə və ümumi əhval-ruhiyyəsinə problemlər yarada biləcəyi kimi saxta iddialar ortaya atıldı.**

# "Arsenal" futbol klubunun rəhbərliyi ən sonda "erməni oyunu"na uydu - 40 oyunda cəmi 8 qol vurmuş qeyri-məhsuldar futbolçuya görə...




## *Kənan Məstəliyev: "Yetərincə ciddi məbləğdir və görünən odur ki, bu pul üçün "erməni kartı"nı oynamağa, bu "oyun"a alət olmağa razıdırlar"*

Maraqlıdır ki, həmin vaxt açıqlama verən "Arsenal"ın baş məşqçisi bildirdi ki, Azərbaycanla Ermənistan arasında belə bir münaqişənin olduğundan xəbərsizdir. Bundan əlavə, Azərbaycanın rəsmi qurumları bəyan edərək bildirdilər ki, oyunla bağlı istər komandaların heyətinin, istərsə də tamaşaçıların təhlükəsizliyinə tam təminat verirlər. AFFA, Azərbaycan Xarici İşlər Nazirliyi və Gənclər və İdman Nazirliyi dövlətin adından çıxış edərək, finalın bütün iştirakçılarına, o cümlədən, Mxitaryana təhlükəsizlik zəmanəti veriblər. Eyni zamanda, Azərbaycanın beynəlxalq yarışların keçirilməsi üzrə ciddi təcrübəsi var. Həmin yarışlarda çoxlu sayda erməni idmançı iştirak edib, hətta qalib gələnləri də olub. Prezident İlham Əliyevin yarışların qalibi olan erməni əsilli idmançının boynuna medal asdığı vaxt da olub.

Azərbaycanda olan tolerantlıq, multikultural ənənələrə sadiqlik bütün dünyaya nümunə kimi göstərilir. Təsadüfi deyil ki, müharibə şəraitində olmağımıza baxmayaraq, hazırda ölkəmizdə on minlərlə erməni əsilli vətəndaş yaşayır. Ermənistanda isə bir nəfər də olsun azərbaycanlıya rast gəlmək mümkün deyil. Təbii ki, bütün bu şərtlər erməni əsilli istənilən idmançının təhlükəsizlik şəraitində gəlib, burada iştirak edib, geri qayıda biləcəyini şərtləndirir. Ancaq, görünür, Bakını erməniofob bir şəhər kimi göstərmək istiqamətində aparılan qara piar cəhdlərində erməni lobbisi nüfuzlu futbol klubunu öz "toruna" sala bilib. 40 oyunda cəmi 8 qol vurmağı bacaran qeyri-məhsuldar bir erməni əsilli futbolçuya görə belə bir qalmaqal yaratmağa dəyərdimi?

Britaniyanın mediası bununla bağlı yazıb: "London klubunun düşərgəsində oyunçulardan birinin təhlükəsizlik problemlərinə görə bu cür ciddi oyunu faktiki olaraq buraxmağa məcbur qaldığı üçün qəzəb hiss olunur. Ötən həftə "Arsenal" UEFA-dan Azərbaycanla Ermənistan arasında davam edən siyasi gərginlik səbəbindən Mxitaryan üçün əlavə təhlükəsizlik zəmanəti tələb etmişdi. Danışıqlar davam edir. "Arsenal"ın qərarı gələn həftənin əvvəlindən gec olmayaraq elan ediləcək, lakin "topçular"ın cərgəsində bu məsələyə nikbin yanaşılmır. Həm klub, həm də oyunçu pərişandırlar".

Göründüyü kimi, bütün oyunçuların təhlükəsizliyinə ən yüksək səviyyədə təminat verildiyi halda, ingilis klubu erməni təsiri altındakı yararsız təbliğatını davam etdirir.

**Tanınmış futbol mütəxəssisi və şərhçisi Kənan Məstəliyev də "Bakı-Xəbər"ə açıqlamasında bunun idmanla heç bir əlaqəsi olmayan məkrli erməni təbliğatı olduğu qənaətindədir:** "Ermənilər, onların dünyaya yayılan lobbisi həmişə öz "yazıq, hüquqları daim tapdalanan erməni xalqı" kartını oynayıb, maksimum dividend qazanmağa çalışıb. Bu, bütün sahələrdə belədir: siyasətdən tutmuş, idmana qədər. İdman da xüsusilə geniş kütləyə xitab etdiyindən, ən populyarı da məhz futbol olduğundan, bu istiqamətdə "işlədiklərinə" təəccüb etməyə dəyməz.

Hamı bilir ki, erməni idmançıların Azərbaycana gəlib-getməsində, yarışlara qatılmasında heç vaxt problem olmayıb. Onlar burada yetərincə turnirdə iştirak edib, hətta çox sayda uğur, qələbə də qazanıb. Bu zaman Azərbaycan dövləti onların təhlükəsizliyinə təminat verib və sözünün üstündə də durub. Yəni ermənilərin "biz ora gəlsək, başımıza oyun açacaqlar" variantı artıq keçərli deyil. Elə bu dəfə də ən yüksək səviyyədə təminat verilib və bunun üçün lazımi tədbirlər görülüb. Sadəcə, kimlərəsə bu kontekstdə ermənilərə bu tolerant münasibət sərf etmir. Onlar əvvəlcədən də bilirdilər ki, Azərbaycan təminat verəcək və heç bir problem olmayacaq.

O ki, qaldı Henrix Mxitaryana, onun "Arsenal"ın əsas heyət üzvü olmadığını futbolu az-çox izləyən hər kəs bilir. Bundan öncə o, "Mançester Yunayted"ə transfer olunmuş, orada özünü yaxşı tərəfdən göstərə bilmədiyinə görə Aleksis Sançeslə heç bir xərc tələb olunmadan dəyişdirilmişdi. Zaman göstərdi ki, bu addım təsadüfi deyildi, çünki Henrix London klubunda da özünə yer tapa bilmədi. Hələ ötən ilin payızında "Arsenal" Avropa Liqasının qrup mərhələsi çərçivəsində Bakıya gələndə də Mxitaryan zədə bəhanəsilə gəlməmişdi. Onun gəlməməsi heç bir şeyi dəyişmədi və "topçular" 3:0 hesablı rahat qələbə qazanıb evlərinə qayıtdılar. İndi də durum təxminən eynidir. Onun Bakıya gəlib-gəlməməsi, böyük mənada, heç nəyi dəyişməyəcək. Uzaqbaşı 90 dəqiqə ehtiyatda oturub, turist səfəri etmiş olacaq. Ona görə də işin idman tərəfində Henrixin gətirilməməsi komanda üçün elə də böyük faciə olmayacaq.

Və son olaraq "Arsenal" məsələsi. Mxitaryan məsələsi onlar üçün çox yaxşı bəhanə oldu. Bundan və guya ki, yolun çox uzaqlığı məsələsi bəhanəsindən istifadə edərək UEFA-ya təzyiq göstərməyə çalışdılar. Final bir matçdır. Burada ən kiçik məqam belə qələbə gətirə bilər. Məncə, bu yolla onlar oyuna təyin olunan hakimə - Canluka Rokkiyə təzyiq etmək istəyirlər. Daha doğrusu, UEFA-nın ədalət təmsilçisinə "kiçik" bir təlimat verməsini və "azacıq" dəstək verməsini gözləyirlər. Çünki qələbə "Arsenal" üçün çox vacibdir.

İngiltərə Premyer-Liqası vasitəsilə Çempionlar Liqasına yollana bilməmələri planları pozub. Bakıda çempion olsalar, bu iş həllini tapacaq və "topçular" gələn mövsümdə əlavə təxminən 80 milyon funt-sterlinq pul əldə edəcəklər. Yetərincə ciddi məbləğdir və görünən odur ki, bu pul üçün "erməni kartı"nı oynamağa, bu "oyun"a alət olmağa razıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Jurnalist Həbibə Abdulla ilə aralarında problem yaranmış məktəb direktoru cavab mətni yaydı - Tural Mirzəliyev nə yazdı...



**Son vaxtlar mətbuatda adı jurnalisti təhqir edən şəxs kimi hallanan 175 saylı orta məktəbin direktoru Tural Mirzəliyev Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun olaya operativ reaksiya xarakterli müraciətinə cavab mətnini redaksiyamıza göndərib.**

Mətni olduğu kimi diqqətinizə çatdırırıq:

"Mətbuat Şurasının sədri Əflatun Amaşova

Hörmətli Əflatun müəllim!

Ümid edirəm ki, mənim müraciətimə də operativ cavab verəcəksiniz.

Jurnalist Həbibə Abdullanın təhqir olunması və hədələnməsi ilə bağlı müraciətinizi oxudum. Həmin müraciətdə adım çəkilir. Maraqlıdır, məndən heç bir məlumat almadan, yalnız Həbibə Abdullanın izahatlarına əsaslanaraq bu cür bəyanat vermək nə qədər doğrudur, nə qədər obyektivdir?

Bildirirəm ki, bir il dörd ay bundan əvvəl (29 yanvar 2018-ci il) vəzifə səlahiyyətlərimi yerinə yetirərkən hücuma məruz qalmışam. 20 noyabr 2018-ci il tarixdə isə həmin şəxs bacısı oğlu ilə birlikdə mənə fiziki xəsarət yetirmişdir. Hazırda məsələ ilə əlaqədar məhkəmə istintaqı davam edir. Həm o zaman, həm də sonralar Həbibə Abdulla, onun həyat yoldaşı Səbuhi Qafarov, eyni zamanda digər bəzi saytlar şəxsimə, rəhbərlik etdiyim kollektivin üzvlərinə aid təhqir və böhtanla dolu məlumatları xəbər adı altında çox tirajlamışlar, sosial şəbəkələrdə əleyhimə iftira və böhtanla müşayiət olunan fikirlər səsləndirmişlər. Hazırda rəhbərlik etdiyim məktəb barədə də artıq bir neçə dəfə www.afn.az saytında yalan məlumatlar verilmişdir. Eyni zamanda diqqətinizə çatdırıram ki, hazırda gedən məhkəmə proseslərindən birində www.afn.az saytının təkzib verməsi və üzr istəməsi ilə əlaqədar vəsatətim vardır. Linqivistik ekspertizanın rəyinə əsasən, həmin saytda dərc olunan məqalədə şərəf və ləyaqəti alçaldan bir çox ifadələrdən istifadə edilmişdir. Bu arayışımın səbəbi odur ki, təhqirə və təhdidə məruz qaldığını iddia etdiyiniz şəxslər cinayət işi ilə nəticələnən məsələdə tərəfdirlər və həmin sayt ittiham olunan şəxsin mətbuat kürsüsü kimi çıxış edir. Sizin tələsik və birtərəfli mövqeyiniz, fikrimcə, məhkəməyə təzyiq kimi qiymətləndirilə bilər. Mətbuat Şurasının sədri olaraq ilk növbədə bu kimi məsələlərə diqqət yetirməyinizi xahiş edirəm.

Mənim azyaşlı övladımın, ailə üzvlərimin AFN-də təhqir olunmağına (məndən mövqe öyrənmək belə istəmirlər. Əksinə, mən mövqeyimi bildirmək istədikdə işıqlandırmırlar), 175 nömrəli, 220 nömrəli məktəblərlə bağlı yalan dolu bir neçə məlumatın həmin saytda verilməyinə Mətbuat Şurasının sədri kimi diqqət yetirmədiyiniz halda, "Sizin bu mövqeyinizə təəcüblənmirəm, onsuz da sizə inanmıram və obyektivliyinizə şübhə edirəm", - sözlərimi təhqir hesab etmisiniz. Ümid edirəm ki, həmkar təəssübkeşliyini bir yana qoyub, məsələyə ilk növbədə insan kimi yanaşacaqsınız. Onu da qeyd etmək istəyirəm ki, sizin bəyanatınızdan əvvəl poçt vasitəsilə Mətbuat Şurasına məktub göndərilmişdir. Həmin məktubda 175 nömrəli məktəblə bağlı yalanın yer aldığı "175 nömrəli məktəbdə daha bir Elina faciəsi yaşana bilər" başlıqlı yazıdan bəhs olunur (əsas kimi mənim də mövqeyimi verdiklərini bildirəcəklər, amma başlıq əsl niyyəti bəlli edir). Məktəb kimi həssas bir yer haqqında qeyri-dəqiq, naməlum mənbəyə əsaslanan bu cür yalan xəbərlərin yayılması ilk növbədə həqiqi mətbuata təhqirdir. Düşünürəm ki, belə məsələlərə diqqət yetirməyiniz daha düzgün olardı. Müraciətinizdə Həbibə Abdullanın təhqir və hədə-qorxuya məruz qaldığını qeyd edirsiniz. Xahiş edirəm, konkret faktlar göstərəsəniz. İstəsəniz və vacib saysanız, mən sizə həmin saytda verilmiş bir neçə yalan dolu məqalə təqdim edə bilərəm. Obyektivlik tərəfdarısınızsa, yenə də sözügedən şəxslərin hələ çox əvvəllərə aid məqalələrinə də baxaraq fikrinizi tam formalaşdıra bilərsiniz.

Sadə bir vətəndaş kimi tövsiyəmi bəzi sayt rəhbərlərinə çatdırmağınızı xahiş edirəm:

1. Məktəblərə və təhsilə qarşı idarəolunan (bu açıqca hiss olunur) hücuma son qoyun
2. Müəllimlik institutuna dəstək olun
3. Vicdanlı və obyektiv olun
4. Təhqir etməyin, təhqir edənlərə meydan verməyin
5. Dostbazlıq etməyin.

Bütün vicdanlı mətbuat işçilərinə dərin hörmətlə, Tural Mirzəliyev"

***Baki-xeber.com***

# Neft bazarı tarixində ilk dəfə qiymətlər 200 dollarlıq həddə çatacaq

**Dünya birjalarında neftin qiyməti yenidən sürətlə yüksəlməyə başlayır. Son məlumatlara görə, Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,03 dollar artaraq 72,65 dollar, Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,08 dollar bahalaşaraq 62,95 dollar təşkil edib. Azərbaycan neftinin də qiyməti bahalaşmaqda davam edir.**




Artıq "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 77 dollara çatır. Amma qiymətlərin daha çox artacağı gözlənir. Bunun ümdə səbəblərindən biri Venesuela, Liviya, İraqda gərgin vəziyyətin davam etməsi və bu ölkələrin neft hasilatını azaltmaqda davam etməsidir.

Digər tərəfdən, ABŞ-ın təzyiqlərinə rəğmən, Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) hasilatı artırmır. Əksinə, OPEC-in qiymət siyasətində yeni gedişlər edərək nefti bir qədər də bahalşıdması gözlənilir. Bu arada xatırladaq ki, mayın 19-da Səudiyyə Ərəbistanının Ciddə şəhərində OPEC və qeyri-OPEC Nazirlərinin Birgə Monitorinq Komitəsinin 14-cü iclası keçiriləcək. İclasda qlobal neft bazarının vəziyyəti müzakirə olunacaq. OPEC-in dünya iqtisadiyyatı və neft bazarının inkişaf tendensiyalarının təhlili əsasında hazırlanmış təqdimatı və Müştərək Texniki Komissiyanın aprel ayı üzrə hasilat göstəricilərindən bəhs edən hesabatı nəzərdən keçiriləcək. Artıq yayılan məlumaat görə, təşkilat neft hasilatı üzrə Azərbaycanın da daxil olduğu OPEC+ razılışmasını ilin sonuna qədər uzatmaq niyyətindədir. Elə bu da qiymətləri yüksəldən əsas amillərdən sayılır.

Amma neftin qiymətini hazırda daha çox qaldıran faktor ABŞ-la İran arasında artan gərginlikdir. Müxtəlif açıqlamalardan belə bəlli olur ki, tərəflər artıq aralarındakı problemin hərb müstəvisində həllinin qaçılmaz olduğunu qəbul edir. Düzdür, "Washington Post" qəzeti iddia edir ki, ABŞ prezidenti Donald Tramp dövlət katibi Maykl Pompeo və milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun onu İranla müharibəyə çəkmələrindən qəzəblənib. Qəzetin yazdığına görə, Donald Tramp hesab edir ki, İranla münaqişə onun seçkiqabağı öhdəliklərinin pozulmasıdır. O, problemi diplomatik və İran liderləri ilə birbaşa danışaraq həll etməyə hazır olduğunu bildirib. ABŞ-ın yüksək vəzifəli məmuru qəzetə bildirib ki, Donald Tramp Bolton və Pompeonun hərbi kampaniya ilə bağlı fəaliyyətlərindən qəzəblənib. O, hələ bu barədə qərar qəbul etməyərək, dövlət katibi və müşavirini bu istiqamətdə fəaliyyət göstərməyini dayandırıb. "The New York Times" qəzeti də yazır ki, ABŞ prezidenti İranla müharibəyə başlamaq istəmir. Qəzetin yazdığına görə, o bunu Ağ Evdə keçirilən məxfi brifinqdə Birləşmiş Ştatların müdafiə naziri vəzifələrinin icraçısı Patrik Şanahana deyib. Mənbənin məlumatına görə, brifinq Amerika kəşfiyyatının İran silahlı qüvvələrinin Fars körfəzində kiçik həcmli gəmilərə raket yükləmələrinə dair məlumatlar əldə etməsindən sonra keçirilib. Amerika administrasiyasının bəzi nümayəndələrinin fikrincə, Tehran ABŞ və ya müttəfiqlərinin döyüş gəmilərinə raket həmləsi endirməyə hazırlıq görür. Qəzetin yazdığına görə, Tramp qətiyyətlə İranla hərbi toqquşmaya girmək istəmədiyini söyləyib. Ağ Ev rəhbəri ümid etdiyini bildirib ki, ABŞ və İran arasında münaqişə müharibə səviyyəsinə çatmayacaq. Amma reallıqda baş verənlər tamam ayrı mənzərə yaradır. Belə ki, ABŞ aktiv şəkildə İran ətrafına hərbi qüvvələr cəmləşdirir. ABŞ Hərbi Dəniz İnstitutunun "USNİ News" portalı bildirir ik, artıq Vaşinqton Fars körfəzi və onun yaxınlığında minimum 7 hərbi gəmisini yerləşdirib. Portal bu gəmilərin "Avraam Linkoln" təyyarədaşıyıcı gəmisinin rəhbərliyi altında olduğunu bildirib. Məlumata görə, Fars körfəzinə ABŞ-ın idarəolunan raketlərlə təchiz edilmiş iki esminesi - "MakFaul" və "Qonsalez" daxil olub. Onların hər birində 90-a yaxın" Tomahavk" və digər raketlərin yerləşdirilə biləcəyi vurğulanıb.

Bundan başqa, BƏƏ sahillərində "Kearsarge"




universal gəmisinin qərarlaşdığı bildirilib. Onun göyərtəsində 20-30 təyyarə və helikopterin yerləşdiyi qeyd edilib. Gəmidə F-35B təyyarələrinin ola biləcəyi vurğulanıb. "Avraam Linkoln" gəmisi isə özünə Oman sahillərində yer edib. Onunla bərabər burada "Leyte Qalf" raket kreyseri, "Bainbric" esminesinin yerləşdiyi bildirilib. "Newsweek" dərgisinin yazdığına görə, ABŞ administrasiyasındakı "qırğılar" İranı kapitulyasiyaya məcbur etməyin planını cızıblar. Pentaqondakı mənbə bildirib ki, İrana qarşı fəaliyyət variantları Tehranı Vaşinqtonla danışıqlar masasına oturmağa məcbur etmək üçün güclü raket kampaniyasının aparılmasını nəzərdə tutur: "Bu, qüvvələrin eskalasiyasından asılıdır. Lakin İran tərəfinin lovğalığından asılı olmayaraq, gündə 500 raket zərbəsi alsanız bu sizə ciddi ziyan vuracaq, məqsəd də elə budur. Sizin opponentiniz zəifləyəndə daha çox güzəşt əldə edəcəksiniz". Bildirilir ki, əslində Tramp administrasiyasının son bir il ərzində yürütdüyü sanksiya siyasətinin son məqsədi İranı ABŞ-la hərbi münaqişəyə cəlb etmək idi. ABŞ artıq bu məqsədinə yaxınlaşır. Eyni zamanda fikirlər səslənir ki, İranın özündə də müəyyən qüvvələr savaşın başlanmasında maraqlıdır. Məsələn, amerikalı senator Marko Rubio bu xüsusda maraqlı fikirlər səsləndirib. Onun sözlərinə görə, İranda sistem elə formalaşdırılıb ki, İranın ABŞ-a hücumu haqqında yüksək vəzifəli şəxslər belə məlumatlı olmaya bilər: "İranın sistemi bizdəki kimi deyil. Onların nizamlı ordusu var, amma bununla bərabər, onlarda SEPAH da mövcuddur və müstəqil hərəkət edir.

İran prezidenti SEPAH-a, özəlliklə də tez-tez onun xəbəri belə olmadığı əməliyyatlar hazırlayan Qüds briqadasına nəzarət edə bilmir. Buna görə də İran xarici işlər naziri, prezident və digər liderlərin Amerikaya hücum etməyəcəkləri ilə bağlı vədləri mənasızdır". Bu səbəbdən senator ABŞ-ın İrana qarşı güc siyasətinin haqlı olduğunu iddia edir. Məhz belə vəziyyət, digər məqamlarla yanaşı, dünya bazarlarında neftin qiymətini sürətlə yüksəldir. ABŞ mediası da yazır ki, İrana atılacaq ilk raketdən sonra neft qiymətləri dərhal 100 dollarlıq həddi keçəcək. İranın Hörmüz boğazını bağalması halında isə qiymətlərin hətta 200 dollarlıq həddə çata biləcəyi də iddia olunur.

*Tahir TAĞIYEV*

# Yunus Oğuzla Elçin Hüseynbəyli Bakının 46 və 283 saylı məktəblərini "bir ocaq başına" yığdı - Azərbaycançılıq...

**"Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihə çərçivəsində növbəti tədbirini keçirib. Paytaxtın Binəqədi rayonunun 283 saylı orta məktəbində keçirilən tədbirdə tarixi və hərbi vətənpərvərlik mövzusunda bir sıra əsərlərin müəllifi olan yazıçılar Yunus Oğuz və Elçin Hüseynbəyli, müəllim və şagirdlər iştirak edib.**

Əvvəlcə təhsil müəssisəsinin, həmçinin Nəsimi rayonu 46 saylı məktəbin şagirdlərinin azərbaycançılıq və hərbi vətənpərvlik mövzusuna həsr etdiyi bədii kompozisiya nümayiş olunub, şeirlər dinlənib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Tünzalə Zeynalova bildirib ki, artıq bu cür tədbirlərin keçirilməsi sözügedən təhsil müəssisəsində ənənə halını alıb. Müntəzəm olaraq keçirilən belə görüşlərin gənclərin, xüsusilə də məktəblilərin hərbi vətənpərvərlik hisslərinin artırılmasına təkan verdiyini deyən Tünzalə Zeynalova yazıçı-publisist Yunus Oğuzla tanışlığı barədə də danışıb. Bildirib ki, yazıçının əsərlərini oxuyandan sonra onunla əyani surətdə tanış olmaq, əsərlərini müzakirə etmək arzusuna düşüb və xarici ölkələrin birində səfərdə olarkən Yunus Oğuzla görüşmək ona nəsib olub. Tünzalə Zeynalova Yunus Oğuzu tarixi romanlarımıza yeni baxışı olan yazıçı kimi xarakterizə edib və qeyd edib ki, artıq Yunus Oğuz 283 saylı məktəbin fəxri üzvüdür.

Layihənin eksperti Süleyman İsmayılbəyli mövzunun aktuallığından danışıb. Bildirib ki, həm azərbaycançılıq ideologiyası, həm də vətənpərvərlik mövzuları günümüz üçün kifayət qədər aktual olduğundan, "Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyi məhz bu iki istiqamətə üstünlük verib. Süleyman İsmayılbəyli ölkəmizin müharibə şəraitində olduğunu nəzərə alaraq gənclərimizin daha çox vətənpərvər olmasını arzulayıb: "Nəzərə alsaq ki, biz ölkə olaraq müharibə vəziyyətində yaşayırıq və torpaqlarımızın 20 faizi erməni qəsbkarları tərəfindən işğala məruz qalıb, o zaman bizim bir xalq olaraq daha çox vətənpərvər olmamız vacibdir, şərtdir". Ekspert bildirib ki, son illərdə ölkədə, xüsusilə də gənclər arasında vətənpərvərlik hissləri daha da artıb. Bunun da başlıca səbəbi dövlətin bu sahədə həyata keçirdyi uğurlu siyasət, Ali Baş Komandanın Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğı və ən çətin anlarda Ali Baş Komandanın səngərdə, ön cəbhədə əsgəri ilə bir yerdə olmasıdır. Süleyman İsmayılbəyli qeyd edib ki, 2016-cı ilin aprel hadisələri zamanı bizlər bunun əyani şahidi olduq. Daha sonra layihə barədə ətraflı məlumat verən ekspert deyib ki, "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihənin icra müddəti 3 aydır. Layihə çərçivəsində azərbaycançılıq və hərbi vətənpərvərlik hissinin yüksəldilməsi üçün silsilə tədbirlər keçiriləcək. Həmin tədbirlərdə gənclərə azərbaycançılıq və vətənpərvərlik hissləri ilə bağlı geniş məlumat veriləcək, bu maarifləndirmə işində prosesə sistemli yanaşma ortaya qoyulacaq". Layihənin məqsədinə gəlincə isə Süleyman İsmayılbəyli bildirib ki, məqsəd azərbaycançılıq və hərbi vətənpərvərlik hissinin aşılanmasında QHT-lərin rolunun artırılmasından, bu yöndə həyata keçirilən işlərdə sistemli yanaşmanın ortaya qoyulmasından ibarətdir: "Layihə çərçivəsində şəhid ailəsinə də baş çəkiləcək. Onların sosial durumları öyrəniləcək və bununla bağlı material hazırlanacaq".

Görüşdə çıxış edən yazıçı Elçin Hüseynbəyli də bu cür tədbirlərin keçirilməsinin aktual olduğunu deyib. Yazıçı qeyd edib ki, uzun müddətdir "Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyi ilə bərabər azərbaycançılıq ideologiyası və vətənpərvərliklə bağlı tədbirlər keçirilir. Həmçinin cəbhə bölgəsinə müntəzəm olaraq səfərlər təşkil edilir: "Hesab edirik ki, qələm adamları olaraq sərhədə, cəbhə bölgəsinə, səngərə daha yaxın olmaqla düşmənlə üz-üzə duran əsgərlərimizə, vətəndaşlarımıza müəyyən mənada töhfə, dəstək vermiş oluruq. Onlar da bu kimi görüşlərdən, səfərlərdən daha da ruhlanırlar.

Daha sonra çıxış edən yazıçı-publisist Yunus Oğuz 283 saylı məktəbdə vətənpərvərlik hisslərinin yüksək səviyyədə olduğunu, bu nöqteyi-nəzərdən sözügedən məktəbin digər təhsil ocaqlarına nümunə göstərilə biləcəyini söyləyib. O qeyd edib ki, belə tədbirlərin tez-tez keçirilməsi lazımdır və Təhsil Nazirliyinin rəhbərliyi ilə keçirilən görüşlərdə bu məsələyə toxunulur: "Belə görüşlər təkcə şagirdlərlə deyil, onların valideynləri, hətta müəllimlərlə də keçirilməlidir. Biz demirik ki, şagirdlərin, yaxud müəllimlərin hamısı idealdır. Biz cəmiyyətdə yaşayırıq və istənilən insanın sosial problemi var. Əgər dövlətdə yaşayırsansa, onun da problemi var. Həmçinin dövlətin başında duranın da problemi var. Dövlətin başında duranın bir nömrəli problemi odur ki, o, xalqının yaxşı yaşaması üçün çalışır, cəhd edir". Yunus Oğuz cəmiyyəti bir yerə yığmaq, sülh şəraitində yaşamaq üçün hansı ideyalardan istifadə etməyin vacib olduğuna da aydınlıq gətirib: "Gəlin etiraf edək ki, bir evdə fərqli-fərqli insanların, iki qardaşın, yaxud ailədə xanımı ilə həyat yoldaşının sözləri heç də hər zaman bir-birinə uyğun gəlmir. Təbii ki, dövləti idarə etmək, onun dağılmaması üçün ilk növbədə vacib olan ideologiyadır. Cəmiyyəti, insanları bir yerdə idarə etmək üçün hər bir dövlətin öz ideologiyası var. İran öz ideologiyasını din üzərində qurub və çox vaxt bu ideologiya cahilliyə, xurafata aparır. Amerika ideologiyanı pulun və qanunlarınn üzərində qurub. Avropa bunu kosmopolitizm üzərində qurub və kosmopolit olsan, dünyanın vətəndaşısan. Ancaq Şərq dövlətləri üçün bu yetərli deyil, tamam başqadır. Sən həm müsəlmansan, həm Avropaya can atırsan, həm də milli kimliyin var. Mənim üçün üçrəngli bayraq əsasdır. Göy, qırmızı və yaşıl rəng, üçü bir yerdə azərbaycançılıqdır. Bəzən azərbaycançılığı deyəndə bəziləri "nədir bu azərbaycançılıq, onsuz da Azərbaycanda yaşayırıq da" - deyirlər. Yox, elə deyil. Düzdür, Azərbaycanda yaşayırıq, ancaq onun müxtəlif insanları, müxtəli dini dünyagörüşləri, baxışları, müxtəlif etnik kimlikləri var. Bunların hamısına Konstitusiya kifayət qədər müstəqil, sərbəst yaşamaq hüququ verir. Bir etnik çoxluğun digər etnik azlıq üzərində hakimliyi ola bilməz. Çoxluq təşkil edən dini icmanın, azlıq təşkil edən dini icmanın üzərində hakimiyyəti ola bilməz. Bütün bunlar azərbaycançılıqdır. Multikulturalizmin, tolerantlığın da də əsas qayəsi ondan ibarətdir. Əslində mən əsərlərimdə bu sözlərdən istifadə etmirəm. Çünki həmin sözlərin Azərbaycan dilində qarşılığı olan gözəl ifadələri var. Məsələn, kreativ sözünün mənası yaradıcı, tolerantlılıq isə dözümlülük deməkdir. Nə üçün biz bunlardan istifadə etmirik? Gərəkdirmi Avropadan nəsə götürək? Avropaya oxşayıb nə edəcəyik? Avropaya oxşayanda tamamilə övladlardan kəsiləcəyik. Ərəblərin, suriyalı, əfqan, hətta pakistanlıların Avropaya axışması təsadüfdür? Azərbaycana niyə gəlmirlər?. Çünki Avropa onlara icazə verdi. Nə üçün? Çünki Avropanın nəsli kəsilirdi. Səbəb isə əks cinsin deyil, eyni cinsdən olanların bir-biri ilə ailə həyatı qurması, evlənməsidir. Uşaq saxlamaq istəmirlər, tək qalmaq istəyirlər. Artıq Avropa sürətlə qocalır. Sürətlə qocalanda isə gec-tez dövlət dağılacaq, məhv olacaq. Həmçinin milli kimliyi itəcək. Bu onların gizli bir siyasətidir ki, Suriya, Liviya, yaxud İraqa bir bomba ataq, orada vəziyyəti gərginləşdirək. Nəticə etibarilə həmin ölkələrin insanlarının bir qismi Avropaya, digər qismi Türkiyəyə, müəyyən hissəsi də Avropaya qaçsın və beləliklə əhalinin say tərkibi dəyişilsin, yeniləşsin. Çünki artıq özləri doğub törəyə bilmirlər". Yunus Oğuz deyib ki, Azərbaycanda isə bu sahədə vəziyyət yaxşıdır və artıq 10 milyon nəfərə çatmışıq: "Sovetlər birliyi dağılan ərəfədə təxminən 6 milyondan bir qədər çox idik. Ermənistanda isə tamamilə fərqli situasiyadır. Sovetlər birliyi dağılanda bu ölkənin vətəndaşlarının sayı 4 milyondan bir qədər çox idi. İndi isə 2 milyon 500 min nəfərdirlər. Düzdür, rəsmi olaraq 3 milyon göstərirlər, ancaq 3 milyondan kifayət qədər azdırlar. Onlar istəsələr də, istəməsələr də əhalinin sayını çox göstərməlidirlər. Çünki beynəlxalq təşkilatlardan yardımlar alarkən əhalinin say tərkibi də nəzərə alınır". Yazıçı onu da deyib ki, biz Şərq ailəsiyik və bizi Şərq ailəsi olmaqdan çıxarmağa cəhd edirlər: "Övlad ata-ana qədrini bilməsin, uşaqlar sərbəst böyüsün, qızlar 18 yaşları tamam olan kimi ərə getsin. Düzdür, hətta bəzi kənd yerlərində 15-16 yaşda da qızları ərə verirlər. Ancaq hesab edirəm ki, ilk növbədə uşaqların təhsili ilə məşğul olmaq lazımdır. Çünki onların gələcəyi təhsildədir. Ruzinin tapılması kitab oxumaqdadır. Bunların hamısının azərbaycançılığa aidiyyəti var. Həmçinin qohumlarımız, yaxınlarımız, ətrafımıza hər zaman saygı göstərməyimizin özü azərbaycançılıqdır". Yunus Oğuz onu da diqqətə çatdırıb ki, uzun illər bizim milli kimliyimizi əlimizdən almağa çalışıblar: "Milli kimliyimizi əlimizdən alanda isə biz artıq qohum-əqrəba, ətrafımıza yadlaşırıq. Düşünürlər ki, burda oxumayıb gedib Avropada təhsil alacaqlar. Düzdür, Avropaya üz tuturlar, ancaq orada həsrətlə yaşayırlar. Hətta burda olduğundan da daha çox sevirlər Azərbaycanı. Çünki istəsən də, istəməsən də alnında bir Azərbaycan möhürü var. Yaxşı bir söz var. Deyirlər ki, suyu torpaqla qarışdıranda palçıq, qanla qarışdıranda isə Vətən olur".



Nəsimi rayonu, 46 saylı məktəbin direktotu Sevinc Budaqova deyib ki, vətənpərvərlik və azərbaycançılıq mövzuları günümüz üçün çox vacibdir. Onun sözlərinə görə, bu kimi görüşlərin təkcə şagirdlər deyil, eləcə də valideynlər, müəllimlər, məktəbdən məzun olan gənclərlə keçirilməsi çox məqsədəuyğundur: "Hər zaman belə bir ifadə işlədilir ki, məktəbin əsas vəzifəsi şəxsiyyət, vətənpərvər şəxsiyyət yetişdirməkdir. Vətəni sevmək ailədən gəlir. Azərbaycanlı olmaq, onunla fəxr etmək lazımdır".

Sonda qonaqlar şagirdlərin suallarını cavabındırıblar və onlara müəllifi olduqları kitablar hədiyyə edilib.

***Süleyman***

Məlum olduğu kimi, mayın 29-da Azərbaycanın evsahibliyi ilə UEFA Avropa Liqasının final oyunu Bakı Olimpiya Stadionunda keçiriləcək. Dünyanın diqqət mərkəzində olan final oyunun ölkəmizdə keçirilməsi əlamətdar bir hadisədir. Ölkəmizdə keçiriləcək Avropa Liqasının final oyununa ciddi hazırlıq işləri həyata keçirilir.

# Avroliqanın futbol finalına görə Azərbaycanın gömrük, vergi və viza qanunvericiliyində dəyişikliklər - nə əldə edəcəyik...




***Elçin Mirzəbəyli:** "Bu sənədlərin imzalanması, gömrük və vergi güzəştlərinin tətbiqi, viza rejiminin sadələşdirilməsi bu mötəbər oyunu izləməyə gələn insanların rahatlığının təmin olunması üçün atılan addımdır"*

***Natiq Cəfərli:** "Belə praktika Azərbaycanda əvvəlki beynəlxalq yarışlar zamanı da mövcud olub"*

Azərbaycan Respublikasının Prezideni İlham Əliyevin sərəncamı ilə Avroliqanın final oyunu və "UEFA 2020?nin oyunları ilə bağlı malların idxalı gömrük rüsumundan azad edilib. Eyni zamanda, Prezidentin sərəncamı ilə vergi qanunvericiliyinə dəyişiklik edilib və bunun nəticəsində də "Avropa Liqasının finalı və AVRO-2020-nin final mərhələsinin oyunları zamanı vergi güzəştləri tətbiq olunacaq. Prezident İlham Əliyev, həmçinin, UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında sərəncam imzalayıb.

Bu, Azərbaycan dövlətinə nə verəcək?

**"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, bu, Azərbaycan xalqının qonaqpərvərliyinin bir daha nümayiş etdirilməsidir.** E.Mirzəbəyli, həmçinin, hesab edir ki, ölkə başçısının bu istiqamətdə imzaladığı sərəncamlar Prezidentin humanistliyindən xəbər verir: "Şübhəsiz, Azərbaycan hər zaman beynəlxalq tədbirlərə evsahibliyi edəndə təkcə prosesin özündə deyil, prosesin başlanğıcında da mühüm işlər görür. Təbii ki, belə nüfuzlu oyunun daha yüksək səviyyədə təşkil olunması üçün bütün lazımi addımları atır. Cənab Prezidentin imzaladığı sərəncamlar, əslində, ölkəmizin idmana olan münasibətini göstərir. Eyni zamanda, bu sənədlərin imzalanması, gömrük və vergi güzəştlərinin tətbiqi, viza rejiminin sadələşdirilməsi bu mötəbər oyunu izləməyə gələn insanların rahatlığının təmin olunması üçün atılan addımdır. Həmçinin, bu sərəncamların mahiyyətində Azərbaycan xalqının uzun əsrlərdən bəri daşıdığı qonaqpərvərlik ənənəsinin mövcudluğu dayanır. Biz qonağa yüksək qiymət vermişik və Azərbaycan da öz qonaqpərvərliyi, öz humanist mahiyyəti ilə hər zaman fərqlənib. Bu da ölkəmizin növbəti atdığı addımlardan biridir".

**Tanınmış iqtisadçı Natiq Cəfərli də hesab edir ki, tətbiq olunan güzəştlərdən Azərbaycan müsbət mənada çox şey qazanacaq:** "Əslində, Avropa Birliyi ölkələri, Amerika, Çin və Yaponiya ilə viza rejiminin tam ləğv edilməsinin gündəmə gəlməsi daha doğru olardı. Bu bizim üçün turizm baxımından çox vacib amillərdən biridir. Viza rejiminin "ASAN xidmət"ə verilməsi və "ASAN viza"ya keçid Azərbaycana gələn turistlərin artımına səbəb oldu. Biz yaxşı təqdimat etsək, turistik xidmətlərin çoxçeşidliliyini artıra bilsək və sənədləşmə işlərini qaydasına qoysaq, turizm sahəsində yüksək nəticələr əldə edə bilərik. Bu da əlavə iş yerləri, büdcə qazancları, vergi ödəmələri deməkdir. Belə praktika Azərbaycanda əvvəlki beynəlxalq yarışlar zamanı da mövcud olub. Həm İlk Avropa Oyunlarında, həm İslam Oyunlarında viza rejimində müəyyən güzəştlərin tətbiq edildiyini gördük. Sonradan isə "ASAN viza" xidməti işə düşdü. Vergi güzəştlərinin tətbiq edilməsinə və Avroliqanın final oyunu və "UEFA 2020?nin oyunları ilə bağlı malların idxalının gömrük rüsumundan azad edilməsinə gəlincə, bunun büdcəyə elə də ciddi bir təsiri olmayacaq. Əksinə, turistlərin və oyuna baxmağa gələnlərin sayının artmasına səbəb olacaq. Oyuna baxmağa gələnlərin sayı haqqında müxtəlif rəqəmlər səsləndirilir. Təkcə çarter reyslərinin sayı 43 olacaq. Yəni söhbət 20-30 min azarkeşin Azərbaycana gəlməsindən gedir. Ortalama hər bir azarkeşin də 1000 dollara yaxın vəsait xərcləmək potensialı olduğunu nəzərə alsaq, o otellərdə, restoranlarda, kafelərdə əlavə dövriyyənin yaranmasına və həmin təşkilatların vergi öhdəliklərinin, eyni zamanda, dolayısı ilə büdcəyə əlavə vergi daxilolmalarının artmasına səbəb olacaq. Final oyunun Bakıda keçirilməsi bu günə qədər Azərbaycanda keçirilən digər idman yarışlarından daha çox büdcə və gəlirlilik nöqteyi-nəzərindən Azərbaycana xeyir verə bilər".

***İradə SARIYEVA***

"Sənədsiz evlərlə bağlı xüsusi komissiya yaradılıb". Bunu mətbuata açıqlamasında Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Eldar Əzizov bildirib.

# Eldar Əzizov Prezidentin tapşırığı ilə qanunsuz tikililərlə bağlı əsaslı prosesə start verib



*"Fərdi evlərin sənədləşdirilməsi ilə bağlı ciddi problem olmamalıdır"*

***Tahir Mirkişili:** "Sözügedən işlərin sürətləndirilməsi ilə bağlı verilən tapşırıq qısa müddətdə bu məsələnin öz həllini tapmasına kömək edəcək"*

E.Əzizov bununla bağlı Prezident İlham Əliyevdən xüsusi tapşırıq aldığını vurğulayıb: "Bir neçə gün əvvəl cənab Prezident məni şəxsən çağırıb və yerlərdə mütəmadi görüşlər keçirməyi tapşırıb. 10 il, 20 il, 30 il yaşadığı evi rəsmiləşdirə bilməyən sakinlər var. Hazırda məsələ ilə bağlı yaradılmış komissiya çalışır. Prezident İlham Əliyev tərəfindən sənəd hazırlanır. Əminəm ki, yaxın günlərdə sənədsiz evlər məsələsi bütün ölkə üzrə birdəfəlik öz həllini tapacaq".

İcra başçısının açıqlamasından o da məlum olub ki, vətəndaşlardan meriyaya daxil olan müraciətlərin böyük əksəriyyəti məhz sənədsiz evlərlə bağlıdır.

Onu da qeyd edək ki, rəsmi məlumatlara görə, hazırda təkcə paytaxt və paytaxtətrafı ərazilərdə tikilmiş, sənədləşdirilməsi mümkün hesab edilən evlərin sayı 700 mindən çoxdur. 2011-cü ildə bununla bağlı dövlət başçısı müəyyən rəsmi qurumlara tapşırıqlar verdi. Ancaq bu məsələ öz həllini tapmadı. Sözügedən məsələ bu il fevralın 19-da dövlət başçısının çoxmərtəbəli evlərin istismara verilməsinin asanlaşdırılması barədə sərəncamından sonra yenidən aktuallaşıb. Görünən odur ki, sənədsiz evlər məsələsinin yoluna qoyulması qəti şəkildə müvafiq qurumlardan tələb edilir. O baxımdan bununla bağlı görülən işləri ekspertlər necə dəyərləndirirlər? Problem öz həllini tapacaqmı?

**Məsələyə münasibət bildirən millət vəkili Tahir Mirkişilinin sözlərinə görə, sözügedən məsələnin həll edilməsi vacibdir:** "Ancaq bu məsələnin həlli edilməsi üçün müəyyən dövrdə texniki işlər də görülməlidir. Ona görə də hesab edirəm ki, texniki işlər başa çatdıqdan sonra sənədsiz evlərin sənədləşdirilməsi öz həllini tapacaq. İstər binaların, istərsə də fərdi evlərin tikilməsi ilə bağlı texniki tələblər və standartlar var. Binalarla bağlı bir sıra işlər aparılıb. Qalıb fərdi evlər məsələsi. Bütün hallarda, sözügedən işlərin sürətləndirilməsi ilə bağlı verilən tapşırıq qısa müddətdə bu məsələnin öz həllini tapmasına kömək edəcək. Digər tərəfdən, hesab edirəm ki, fərdi evlərin sənədləşdirilməsi daha rahat olmalıdır.

Məsələ ondadır ki, çoxmənzilli binalara qoyulan tələblərlə, fərdi evlərə qoyulan tələblər arasında böyük fərq var. Nəzərə almaq lazımdır ki, fərdi evlərin tikintisinin asanlaşdırılması ilə də bağlı qanunvericiliyə dəyişikliklər edilib. Hündürlüyü 12 metrə çatan fərdi evlərin tikilməsi ilə bağlı icazə sistemi və memarlıq proyektləri daha asan bir formada həyata keçirilir. Bu baxımdan hesab edirəm ki, fərdi evlərin sənədləşdirilməsi ilə bağlı ciddi problem olmamalıdır".

***Vidadi ORDAHALLI***

# Bankların kompensasiya ödənişində "şapka" deyilən rüşvətalma söhbətləri də çıxır...

**Prezident İlham Əliyevin "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" 28 fevral 2019-cu il tarixli Fərmanının icrası olaraq, fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə kompensasiyaların verilməsi ilə əlaqədar hazırlıq işləri başa çatdırılıb və kompensasiyaların ödənişinə başlanıb.**




*"Kompensasiyaların verilməsi Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının nəzarəti altında həyata keçirilir və hər hansı hüquq pozuntusuna yol verilmir"*

***"Muğanbank" - Sahib Daşdəmirov:** "Kompensasiya üçün rüşvət tələb edildiyini deyən Rövşən Qəhrəmanov "Muğanbank"ın müştərisi deyil"*

Artıq vətəndaşların bir qismi kompensasiyanı alıb, ya da alacaq. Ancaq bəzi banklar vətəndaşa kompensasiyanı ödəmək üçün ondan əlavə ödəniş tələb edirlər. Bu hal "Muğanbank"ın Şəmkir filialında da qeydə alınıb. Şikayətçi Rövşən Qəhrəmanov bildirib ki, 2015-ci ildə "Muğanbank"ın Şəmkir filialından Hüseynova Validə Əli qızının adına dollar krediti götürüb: "Kredit bağlanıb. Bizə 913 manat kompensasiya düşür. Bank bizdən 240 manat pul istəyir. Deyir ki, bu pulu gətirməsəniz, kartınızı ala bilməyəcəksiniz. İşçilər deyirlər ki, bizə guya güzəşt edilib. Hansı sənədlə güzəşt edilib? Bunu sübutla ortaya qoyan yoxdur. Halbuki, biz artıqlamasıyla kreditimizi bağlamışıq. Bu cür problemi tək bizə yox, müştərilərin çoxuna yaşadırlar".

Digər şikayətçi Hacıyeva Yavər Seymur qızı isə qeyd edir ki, o da 2015-ci ildə 2000 dollar kredit götürüb: "Krediti ödəyib bitirmişik. Hazırda bizə 1600 manat kompensasiya düşür. Bizdən də 516 manat pul tələb edirlər".

Şikayətçilərin məlum iradını nəzərə alıb, "Muğanbank"la əlaqə saxladıq. "Muğanbank" ASC-nin İdarə Heyəti sədrinin hüquqi məsələlər üzrə müşaviri Sahib Daşdəmirov bildirdi ki, kompensasiya üçün ondan rüşvət tələb edildiyini deyən Rövşən Qəhrəmanov "Muğanbank" ASC-nin müştərisi deyil və ona heç bir kompensasiya məbləğinin verilməsi nəzərdə tutulmayıb: "Bildirmək istəyirik ki, həqiqətən də R.Qəhrəmanov "Muğanbank" ASC-nin Şəmkir filialına müraciət edərək, yuxarıda adı çəkilən müştərilərə çatacaq kompensasiya məbləği ilə maraqlanmağa çalışıb, lakin bank tərəfindən R.Qəhrəmanova "Banklar haqqında" Azərbaycan Respublikası Qanunun müddəaları izah edilmiş və digər müştəri barədə məlumat verilməsindən imtina edilib. Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin 28.02.2019-cu il tarixli Fərmanına əsasən, vətəndaşlara kompensasiyalar tam şəffaf şəraitdə verilməklə yanaşı, kompensasiyaların verilməsi Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının nəzarəti altında həyata keçirilir və hər hansı hüquq pozuntusuna yol verilmir.

Vətəndaş Hacıyeva Yavər Teymur qızı isə banka müraciət edərək heç bir sayta narazılıq etmədiyini və ümumiyyətlə, bu barədə xəbərinin olmadığını bildirib".

**Günel CƏLİLOVA**

# "MilliÖn" aparatları "Bakı Kart" üçün ödənişlərində vətəndaşlara fırıldaq gəlir

**Metro və bəzi avtobusların ödənişi "Bakı Kart" vasitəsilə həyata keçirilir. İnsanlar karta ödəniş yükləmək üçün ya metro stansiyalarında olan terminallardan, ya da şəhərin müxtəlif ərazisində quraşdırılan "MilliÖn" aparatının xidmətindən istifadə edirlər.**




*"Problemlərin bir çoxu sərnişinlərin ödəniş təlimatını düzgün icra etməməsi səbəbindən yaranır"*

***"MilliÖn" - Ülviyyə Əfəndiyeva:** "Müştəri şikayətində haqlıdırsa, məbləğ ona geri ödənilir"*

Ancaq şəhərin müxtəlif ərazilərində quraşdırılan "MilliÖn" terminallarından "Bakı Kart"a hər zaman gedişhaqqı yükləmək mümkün olmur. Belə ki, şəhərin bəzi ərazilərində qurulan "Bakı Kart" terminallarında tez-tez problemlər yaranır.

Bəzən sərnişinlər "Bakı Kart"a ödəniş edərkən balansın artırılmaması problemi ilə üzləşirlər. Ya məbləğ karta yüklənmir, ya da aparatın qəbul etdiyi qəpik sistemdə görünmür. Bu da sərnişinləri ciddi şəkildə narahat edir.

"MilliÖn" aparatından "Bakı Kart"a ödənişin nə səbəbdən mümkün olmadığını öyrənmək üçün "MilliÖn" şəbəkəsinə müraciət etdik. "MilliÖn" şəbəkəsinin İctimaiyyətlə Əlaqələr və Müştəri Xidmətləri bölümünün rəhbəri Ülviyyə Əfəndiyeva qeyd etdi ki, yaranan çətinliklər müştərinin müraciəti əsasında dərhal araşdırılır: "Nəzərə almaq lazımdır ki, ölkə üzrə 3000-ə yaxın ödəmə terminalı mövcuddur. Ödəmə terminalları quraşdırılarkən sakinlərin ən çox və tez-tez istifadə etdiyi məkanlar və s. xüsusi kriteriyalar nəzərə alınır. Ödəmə terminallarının quraşdırılacağı ərazilərdə təhlükəsizlik müşahidə kameraları olmalıdır. Vətəndaşlar ödəmə terminallarının yerləşdiyi ərazilər barədə məlumat almaq istəsələr, "Qaynar xətt"lə əlaqə saxlaya bilərlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, problemlərin bir çoxu sərnişinlərin ödəniş təlimatını düzgün icra etməməsi səbəbindən yaranır: "Bəzən sərnişinlər istifadəyə yararsız halda olan kağız əskinasları və ya qəpik pulları terminala daxil etməyə çalışırlar. Ona görə də aparatlar həmin pulu qəbul etmir. Bütün hallarda, yaranan vəziyyətlə bağlı vətəndaşların şirkətin müştəri xidməti ilə əlaqə saxlaması tövsiyə olunur. "Qaynar xətt"ə müraciət edən hər bir şəxsə dəstək olunur. Öncəliklə ödənişin həyata keçirilib-keçirilməməsi yoxlanılır və müştəriyə məlumat verilir. Terminallar adətən müşahidə kameralarının olduğu yerlərdə quraşdırıldığından, mübahisəli məsələlərin həlli üçün bu görüntülərdən də lazım gəlsə istifadə olunur. Müştəri şikayətində haqlıdırsa, məbləğ ona geri ödənilir".

**Günel CƏLİLOVA**

# İdmançılarımızın növbəti uğurlu çıxışı - bu dəfə Ukraynada...

**Azərbaycan idmançıları dünya və qitə miqyaslı yarışlarda uğurlu çıxışlarını davam etdirir. Belə nailiyyətlərdən biri may ayının əvvəlində Ukraynanın Xarkov şəhərində Kempo-Karate və Kobudo döyüş növləri üzrə keçirilən dünya çempionatında olub.**

Yarışda ölkəmizi Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, Beynəlxalq Kempo Karate və Kobudo Federasiyasının vitse-prezidenti, Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo-Kempo Növləri İdman Federasiyasının prezidenti, IX dan qara kəmər sahibi Tarverdi Allahverdiyevin rəhbərliyi altında federasiyanın 36 idmançıdan ibarət yığma komandası təmsil edirdi. 17 ölkədən idmançıların mübarizə apardığı turnirdə komandamız növbəti dəfə onlara göstərilən etimadı doğruldaraq, çempionatı ilk




pillədə başa vurub. Ukrayna 2-ci, Qazaxıstan isə 3-cü yeri tutub. Turnirdə ölkəmizin hesabına Hüseynov Pərviz, Əhmədov Yusif, Məstiyev Samir, Mahmudov Elçin, Səfərov Söhrab, Allahverdiyev Məhəmməd, Əli və Cavid Abdullazadələr, Dadaşov Saməddin, Davudzadə Həsən, Quliyev Tuncay, Məmmədli Kənan, Kazımov Ramin, Məmmədli Abdulsəid, Nurizadə Emin, Quliyev Sübhan, Həşimzadə Dilavər, qızlardan Tahirova Fatimə, Salmanlı Zəhra qızıl medal, Orucov Məhəmməd, Quliyev Tural, Tahirov Fateh və adlarını sadalaya bilmədiyimiz idmançılarımız gümüş və bürünc medallar gətiriblər. Bir nəfər idmançımız - Məmmədov Azad isə Dünya Kəmərinin sahibi olub. Umumilikdə idmançılarımız Vətənə 19 qızıl, 9 gümüş, 6 bürünc medalla dönüblər.

İdmançılarımıza növbəti yarışlarda bol-bol uğurlar arzu edirik.

# Bakının ortasındakı məşhur "Şanxay"ın söküntü yerləri qorxulu antisanitariya mənbəyinə çevrilib...

**2015-ci ildə ölkədə milli valyutanın dəyərdən düşməsi, dünya bazarında isə neftin qiymətinin ucuzlaşması Azərbaycanda bir çox sahələrə, xüsusilə də tikinti sektoruna zərər vurdu. Nəticədə Bakıda həmin ərəfədə yaşanan tikinti bumu səngidi.**



***Müqabil Kərimov:*** *"Sökülən evlərin yerində siçanlar artıb, sahibsiz dolaşan itlərin sayı çoxalıb"*

***İlqar Hüseynli:*** *"Belə hallarda söküntü kompleks şəkildə aparılmalı və dəmir yoluna yaxın olan bütün evlər sökülməlidir"*

Bu həm də Bakının bəzi ərazilərində söküntü işlərinin aparılmasını bir qədər yubatdı. Ancaq 2016-cı ilin sonunda işlər yoluna düşməyə başlayandan sonra dəmir yoluna yaxın ərazidə yerləşən evlərin sökülməsinə start verildi.

Belə ərazilərdən biri də Bakının Nizami rayonu, Keşlə qəsəbəsində yerləşən "Şanxay" adlanan ərazidir. "Şanxay"ın təməli ötən əsrin 50-ci illərində qoyulub. Müxtəlif bölgələrdən gələnlər, məcburi köçkünlər dəmir yolundan 1-2 metr aralı "gecəqondu" tipli evlər tikərək burada məskunlaşıblar. Qəsəbədən dəmir yolu xətti keçdiyi üçün, bəzi sakinlər burada çarəsiz vəziyyətdə yaşadılar. Hətta qatar gəlib vurar deyə, uşaqları oynamağa belə buraxmağa qorxurdular. Nəhayət, 2017-ci ildə "Şanxay"da dəmir yolunun yaxınlığında tikilmiş evlərin sökülməsinə start verildi. Bu işlər çərçivəsində 500-ə yaxın ev sökülərək sahiblərinə mənzilin kvadratına görə kompensasiya ödənildi. Ancaq aparılan söküntü yarımçıq olduğu üçün, dəmir yol ətrafında tikilən bütün evlər sökülməyib.

Bu arada qəzetimizə şikayət edən "Şanxay" sakini Müqabil Kərimovun sözlərinə görə, işin yarımçıq aparılması onlar üçün müəyyən problemlər yaradır: "Dəmir yoluna yaxın olduğuna görə bizim evlər də plana düşməli idi, amma bu baş vermədi. Söküntü işi yarımçıq qaldı. İndi sökülən evlər xarabazarlığa bənzəyir. Bunun yaratdığı problem odur ki, sökülən evlərin yerində siçanlar artıb. Təbiətin bu dövründə ilanlar da fəal olur. Eyni zamanda, sahibsiz dolaşan itlərin sayı çoxalıb. Axşamlar işdən evə gələndə qorxuruq ki, həmin itlər bizə hücum edər. Evlərin hesabına axşamlar məhəllə işıqlandırılırdı. İndi isə gecələr ərazi kabusa bənzəyir. Çox çətindir belə şəraitdə yaşamaq. Sökürdülərsə, bütün evləri sökəydilər də. İndi biz ortalıqda qalmışıq və bilmirik nə edək. Bizə deyən yoxdur ki, haçan evimiz plana düşəcək və biz də işimizi bilək. Kimin ki, evi plana düşdü, aldığı kompensasiya müqabilində Bakıətrafı ərazilərdə özlərinə normal ev aldılar. Tez-tez sular, qaz kəsilir. Nə qədər ki, söküntü olmamışdı, bununla bağlı problem yox idi. İndi bu sahədə də problemlərimiz artıb".

Söküntünün nəyə görə yarımçıq aparılması ilə bağlı "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Sevinc Qədirova ilə əlaqə saxladıq. O məsələ araşdırıldıqdan sonra məlumat veriləcəyini bildirdi.

**Ekspert İlqar Hüseynli isə hesab edir ki, söküntünün yarımçıq aparılması sakinlərə problemlər yaradır:** "Belə hallarda söküntü kompleks şəkildə aparılmalı və dəmir yoluna yaxın olan bütün evlər sökülməlidir. Bir qisminin sökülməsi, digər bir qisminin qalması müəyyən problemlərə yol açır. Hansı ki, orada yaşayan sakinlər bundan əziyyət çəkirlər. Digər tərəfdən, bu, ərazidə abadlıq işlərinin aparılmasına mane olur. Baxmayaraq ki, bu çox vacib məsələdir. Nəzərə almaq lazımdır ki, söküntünün yarımçıq aparılması infrastrukturla bağlı işlərin görülməsinə və tamamlanmasına mane olur".

***Vidadi ORDAHALLI***

# Bakıda 1 milyon sahibsiz it?

**Son günlərdə paytaxt Bakının mərkəzi küçələrində, eləcə də park və xiyabanlarında sahibsiz itlərin kütləviləşdiyinin şahidi oluruq. Əlbəttə, bu cür itlər quduzluq, ya da yoluxucu xəstəliklərin daşıyıcısı ola bilər. Həmçinin, tez-tez sahibsiz itlərin ətrafdakı insanlara hücum etməsini müşahidə edirik. Bu da insanların, xüsusən də valideynlərin narazılığına səbəb olur.**



*"Bakı əhalisinin sayı 2 milyondan artıq olduğu halda, 1 milyon sahibsiz itin olması şübhə doğurur, onda belə çıxır ki, 2 nəfərə 1 it düşür?"*

## ***Vüsalə Ali:*** *"Sahibsiz küçə heyvanlarının dəqiq sayını müəyyən etmək çətindir"*

Məlumdur ki, əvvəllər küçə itlərini güllələyir, öldürürdülər. Lakin məlum olduğu kimi, Azərbaycan 1997-ci ildə Strasburqda "Heyvanların Mühafizəsi" ilə bağlı Avropa Konvensiyasına qoşulub, 2007-ci ildə ölkəmizdə "Heyvanların mühafizəsi haqqında" Qanun qəbul olunub. Qanuna əsasən, heyvanları öldürən və yaxud onlarla qəddar rəftar edib şikəst edən şəxslər İnzibati Xətalar Məcəlləsinin 129-cu maddəsinə əsasən cərimə olunurlar. Cərimə isə əvvəllər 25-45 manat arasında dəyişirdisə, hazırda bu məbləğ 500 manatdır. Həmçinin, yarış, satış və digər heyvanların təbii imkanlarını artırıb-azaltmaq üçün onlara preparatların verilməsi, tibbitexniki üsulların tətbiqinə görə 200 manat cərimə nəzərdə tutulub. Ev heyvanlarının görünüşünün dəyişdirilməsi və yaxud müalicə məqsədi daşımayan cərrahi əməliyyat aparmaq, o cümlədən, heyvanın qulaqlarını kəsmək, dırnağını və ya dişlərini çıxartmaq, səsini batırmaq üçün edilən və sairə kimi xoşagəlməz davranışlar üçün də 200 manat cərimə nəzərdə tutulub. Heyvanların ölkədən çıxarılması və ya gətirilməsi qaydalarını pozanlar isə 100-300 manat arasında cərimə oluna bilər. Bu səbəbdən küçə itləri öldürülmür və onlarında sayı günü-gündən artır.

Açıqlanan statistik rəqəmlərə əsasən, Bakıda 1 milyon sahibsiz küçə iti varmış. Paytaxtda mövcud olan sahibsiz itlərlə bağlı "Toplan" Sahibsiz İtlərə Qayğı Mərkəzinin xarici şirkətlə birgə apardığı araşdırmaların nəticəsi açıqlanıb. Araşdırma nəticəsində Bakıda 1 milyona yaxın sahibsiz küçə itinin olduğu müəyyənləşib.

Monitorinq qrupunun üzvləri media nümayəndələrinə bildirib ki, təcili tədbir görülməzsə, sahibsiz küçə itləri Bakı sakinlərinin təhlükəsizliyi üçün böyük problemə çevriləcək. Bu səbəbdən də Mərkəz tərəfindən küçə itlərinin toplanması işləri sürətləndirilib, briqadaların sayının artırılması qərara alınıb.

Qeyd edək ki, "Toplan" briqadaları ərazilərə başçəkməni vətəndaşlardan daxil olan şikayətlər əsasında həyata keçirirlər. Bütün monitorinqlər aktlaşdırılır.

Açıqlanan statistik rəqəmlərdə 1 milyon sahibsiz küçə itinin olduğu qeyd olunur. Ancaq bu qədər itin paytaxt Bakı ərazisində olması şübhə doğurur. Ekspertlər bildirirlər ki, Bakı əhalisinin sayı 2 milyon 274 min nəfərdir. Paytaxt əhalisinin sayı 2 milyondan çox olduğu halda, sahibsiz küçə itlərinin sayının 1 milyon olması təəccüb doğurur.

**Ekspert Vüsalə Ali "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, itlərin sayının dəqiq nə qədər olduğu heç kimə bəlli deyil:** "Məlumdur ki, Bakı əhalisinin sayı 2 milyondan artıqdır. Onda belə çıxır ki, 2 nəfərə 1 it düşür?

**Bəllidir ki, itlər ildə bir dəfə balalayır. Ancaq nəzərə almaq lazımdır ki, it il ərzində 6 və ya daha çox balalaya bilər. Sahibsiz küçə heyvanlarının dəqiq sayını müəyyən etmək çətindir. Çünki hər qəsəbədə, küçədə sahibsiz küçə itlərinin sayı yetərincədir. Onların dəqiq sayını heç həmin əraziyə nəzarət edən sahə nümayəndələri də bilmirlər. Yaxşı olar ki, sahibsiz küçə heyvanlarının dəqiq qeydiyyatı aparılsın".**

***Günel CƏLİLOVA***

№ 89 (3987) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

18-20 MAY 2019-cu il

www.baki-xeber.com


## "Bakcell"dən eşitmə məhdudiyyətli gənclər arasında ənənəvi futzal turnirinə dəstək

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti eşitmə məhdudiyyətli gənclər arasında keçirilən futzal üzrə ənənəvi "Yaz turniri"nə növbəti dəfə dəstək göstərib.**

AFFA-nın, Sahə Futbol Federasiyaları İctimai Birliyinin və "Bakcell" şirkətinin dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin idman sarayında keçirilmiş futzal turnirində "Bakı", "Azəri", "Zirvə", "Şimşək" və "Ümid" komandaları mübarizə aparıblar.

Turnirin nəticəsi olaraq, "Azəri" komandası birinci, "Şimşək" komandası ikinci, "Zirvə" komandası isə üçüncü yeri tutub."Azəri" komandasının üzvü Rabil Şabanov ən yaxşı qapıçı, "Şimşək"dən Ümid İbrahimov isə ən yaxşı oyunçu adına layiq görülüb. Turnirin ən məhsuldar futbolçusu "Azəri" komandasının üzvü Rəvan Muxtarlı olub.

**Özünün genişmiqyaslı Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə "Bakcell" şirkəti Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərməyə və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş mühüm layihələri həyata keçirməyə davam edəcək.**

## TƏBRİK!



İşıq kimi ömrümə
Çiləndin oğul balam.
Ömrümün yaraşığı
Ay şirin, noğul balam.

Çatdın iki yaşına,
Tanrı qorusun səni.
İgidim, qoçağımsan,
Hər an sevindir məni…

Böyü, boy at, yüz yaşa,
Vətənə əsgər ol sən.
Ay sarsılmaz vüqarım,
Təbrik edir öz nənən.

Bu gün Ələddin balanın 2 yaşı tamam olur. Onu doğum günü münasibətilə anası Surə, atası Arzu, nənələri Mahizər xanım, Xatirə xanım, Nazlı xanım, babaları Sahib müəllim, Ramiz müəllim, əmiləri Həmid, Əli, xalası Tünzalə, bibiləri Gül, Qətibə, Sona, Jalə, bibisi qızı Şəhla və bütün Ələddinsevərlər təbrik edir, ona can sağlığı, uzun ömür, işıqlı gələcək arzulayırlar.
Ələddin bala, 2 yaşın mübarək!

## Elan

Quliyeva Rəfiqə Fikrət qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əsgərov Elnur Elşən oğluna Az.MİU nəzdində İnşaat Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quliyeva Sona Vahid qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Kazımov Mamoy Əli oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Müzəffər Həsənov, ev 68 V ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.




## 27 dildə danışan poliqlot dillər arasında əlaqə olduğunu deyir

**Macar Otto Qaal 27 dildə sərbəst danışır. Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, o, həm də Avropada ən çox dil sertifikatı olan poliqlotdur.**

O.Qaal özünəməxsus dil öyrənmə metodu işləyib hazırlayıb və bu metodla öz şagirdlərinin lap on dil öyrənmələrinə kömək edir. Hazırda o, dünyanın ən müvəffəqiyyətli poliqlotlarından biridir. O.Qaal ilk dil sertifikatını 1970-ci illərdə alıb. Bu sertifikat ona ingilis dilini gözəl mənimsədiyinə görə təqdim edilib. Bunun ardınca ispan, italyan və fransız dillərindən müvəffəqiyyətlə imtahanlar verib. O.Qaal "Fokusz" nəşrinə müsahibəsində etiraf edib ki, elə bir il olub ki, beş dildən imtahan verib. O, 15-ci dili öyrəndikdən sonra başa düşüb ki, dillər arasında əlaqə var. Məsələn, hər bir dildə 800 söz və 80 struktur var. Bu strukturların hər biri həmin dildə mətnlərin 80 faizini təşkil edir. Beləliklə, o, nəinki dil öyrənməyin, həm də öyrətməyin metodunu işləyib hazırlayıb və hazırda bu metodun köməyi ilə tələbələrin dil öyrənməsinə kömək edir.

## "Lyuk" ləqəbli gömrük iti bəyannamədə göstərilməyən pulları tapır

**"Lyuk" ləqəbli gömrük iti Düsseldorf aeroportunda xidmət etdiyi 6 ay ərzində ümumilikdə 11 sərnişində 1,2 milyon avro dəyərində bəyannamədə göstərilməyən nağd pul iyləyərək aşkarlayıb.**

"AZƏRTAC" bildirir ki, Almaniyanın "WDR Fernsehen" telekanalında nümayiş etdirilən videoreportaj gömrükçülərin dördayaqlı "dost"una həsr olunub. Üç yaşlı alman çoban iti Almaniyada yeganə itdir ki, şübhəli iri partiyalı nağd pulların aşkar edilməsinə öyrədilib. "Lyuk" kiminsə baqajda böyük məbləğdə pul aparmasını hiss etdikdə, dərhal hürməyə başlayır. Əgər sərnişin gömrükdən keçdiyi zaman bəyannamədə göstərilməyən 10 min avrodan yuxarı nağd pul aparırsa, o zaman bu, Almaniyada qayda pozuntusu hesab edilir. Gömrükçülər başa düşmürlər ki, sərnişinlər bəyannamədən niyə boyun qaçırırlar? Sadə bəyannamədə 5-6 bəndi doldurmaqla qeyri-məhdud sayda nağd pul aparmaq mümkündür. Gömrükdə heç kim bu pulların mənşəyi barədə soruşmur, heç bir komissiya haqqı ödəmək lazım gəlmir. Hətta, ən böyük məbləğdə nağd pulu bəyannamədə göstərdikdən sonra keçirmək mümkündür. Bəyannamə yalnız statistik təhlil və narkotiklərin qanunsuz dövriyyəsində və çirkli pulların "yuyulmasında" şübhəli şəxslərin üzə çıxarılmasından ötrü lazımdır. "Lyuk"un məşqçilərinin sözlərinə görə, it çap rəngləri kombinasiyasının və əsginasların qoxusunu hiss edərək pulu tapır. "Hər valyuta özünəməxsus qoxuya malikdir", - deyə "Lyuk"un məşqçilərindən biri danışır. İti avro, ABŞ dolları, Britaniya funtu və Türkiyə lirəsinin qoxusunu qəbul etməyə öyrəşdirirlər. Ötən ilin noyabrında sərnişin tərəfindən təxminən 870 min avro nağd pulun keçirilməsinə cəhd göstərildikdən sonra Düsseldorf hava limanı qəzet başlıqlarına düşmüşdü.




**Qoç** - Situasiya bağlı mənşəyi və səbəbi sizə bəlli olmayan nüanslar üzə çıxacaq. Gecikməyə, səhvə, anlaşılmazlığa yol verməmək üçün düşünüb-daşınmadan qərar qəbul etməyin. Yeni işə və ya layihəyə başlayanda ehtiyatlı olun.


**Buğa** - Baş verənləri anlamaq üçün harmoniyaya ehtiyacınız var. Estetik, qastronomik, maliyyə tələblərinizin ödənməsinə can atacaqsınız. Yeni mərhələnin ilkin təzahürlərini ayırd etməyi bacarın.


**Əkizlər** - Mümkün qədər diqqətli olun. İşdə vəzifənizin böyüməsini, karyera inkişafınızı istəyirsinizsə və ya daha çox gəlir əldə etmək istəyirsinizsə, bütün təfərrüatları diqqətdə saxlamaq məcburiyyətindəsiz.


**Xərçəng** - İntuisiyanız pis deyil. Nabədəl olduğunuz insanla, yad situasiyalarla ehtiyatlı olun. Təcrübə qıtlığı duyulan məqamlarda yalnız hissiyata bel bağlamayın. Önəmli sənədləri və məlumatları, açarları və parolu yeni tanışa etibar etməyin.


**Şir** - Yaşamınızın mübhəm məqamlarını hamıya faş etməyin. Yarımçıq qalan işləri başa vurun. Can atdığınız məqsədi reallaşdırın. Önənvi situasiyalardan kənar durumun yaranması, müəyyən proseslərin başa çatması istisna deyil.


**Qız** - Təcrübəli və müdrik insanların məsləhətlərinə qulaq asın. Məişət qayğıları ilə işgüzar məsələləri qarışdırmayın. Sizə dəxli olmayan məsələlərə müdaxilə etməyin. Problemləri həll etmək üçün yalan danışmayın.


**Tərəzi** - Peşəkar öhdəliklərinizi yerinə yetirin. Məsuliyyətdən yayınmayın. Xidməti yazışmalarda detallara fikir verin. Təlimatlara riayət edin. Gecikmə, yollarda tıxaclara düşmə, görüşün təxirə salınması, hesablarda səhvlər riski var.


**Əqrəb** - Təşəxxüslü və eqoist insan təsiri bağışlayın. Taleyin sınağından üzüağ çıxmağa çalışın. Riskə aludə olmayın. Məqsədə doğru aparan yoldakı tələlərdən və məkrli ssenarilərdən yayının.


**Oxatan** - Önəmli saydığınız sahədə əhəmiyyətli uğurlar vəd edən əlverişli gündür. Seçdiyiniz yoldan sapmayın: bu yol sizi məqsədə aparır. Yaxın ətrafınızdakı insanlar sizi günün ikinci yarısında dəstəkləyəcəklər.


**Oğlaq** - Səfərdə, yazışmada və ya söhbətdə anlaşılmazlıq yarana bilər. Maddi məsələləri vaxtında həll etmək istəyirsinizsə, yalnız öz qüvvənizə və potensialınıza bel bağlayın.


**Dolça** - Mənəvi və maddi məqamlarla bağlı pərişanlığa düçar olmayın. Kollektiv tədbirin təxirə salınması, yalan və ya fırıldaq riski var. Hesablarınızda səhv, gözləntilərinizdə yanlışlıqlar varsa, günahı başqalarında aramayın.


**Balıqlar** - Rəqibləri zəif saymayın, problemlərinizin, gerçəkdən də, mürəkkəb olduğunu etiraf edin. Belə olarsa, çox problemlərin öhdəsindən gələ bilərsiniz. Nikbinlik və qüvvələrinizə əminlik imkanlarınızı artıracaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## ABŞ-da naməlum heyvanın qalıqları tapıldı



**ABŞ-ın Florida ştatında yaşayan Kelli Qrraxan evinin yaxınlığında naməlum heyvanın qalıqlarını tapıb. "Ölkə.az" bildirir ki, naməlum heyvanın baş forması və dişləri itə bənzəyir.**

Amma quyruğu və qəribə pəncələri isə başqa heyvan olduğundan xəbər verir. Naməlum heyvanın uzunluğu 50 sm-dir. Kelli sevgilisi ilə birlikdə naməlum heyvanın fotolarını çəkib internetə yükləyiblər. Bəziləri bunun koyota, bəziləri komod varanına bənzədiblər. Opossuma və əfsanəvi çupakabra bənzədənlər də tapılıb. Qrraxan və onun sevgilisi fotoları vəhşi təbiətin mühafizəsi idarəsinə də göndəriblər. Ekspertlərin fikrinə əsasən, bu, hansısa hibrid və ya mutant heyvanın qalıqlarıdır.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.